HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 36 (676) ▪ 18 sentyabr 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev yeni obyektlərin açılışında iştirak etmişdir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da bölgələrə səfəri çərçivəsində Şəmkir rayonuna gəlmişdir.*





Dövlətimizin başçısı əvvəlcə Şəmkir şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur. Prezident İlham Əliyevə abidənin ətrafında və ümumilikdə rayonda son illərdə görülən abadlıq işləri barədə məlumat verilmişdir.

Prezident İlham Əliyev Şəmkirə səfəri çərçivəsində Bayraq Meydanı və Bayraq Muzeyi ilə də tanış olmuşdur. Dövlətimizin başçısına məlumat verilmişdir ki, Şəmkir rayonunun girişində yerləşən meydan 4,5 hektar ərazini əhatə edir. Meydanda 98 metr hündürlüyündə bayraq dirəyi ucaldılmış, uzunluğu 40, eni 20 metr olan dövlət bayrağı asılmışdır. Bildirilmişdir ki, muzeyin xarici vitrajları şüşə paketdən hazırlanmışdır. İkimərtəbəli binada Azərbaycanın qədim və müasir tarixinə dair maraqlı eksponatlar toplanmışdır.

Sonra Prezident İlham Əliyev Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. Mərkəzin ətrafında yaradılan parkla tanış olan dövlətimizin başçısına məlumat verilmişdir ki, parkın ümumi sahəsi 14,5 hektardır. Ərazidə müasir tipli 7 fəvvarə, uzunluğu 742 metr olan açıq su kanalları və onların üzərində tunel tipli 10 keçid-körpü, göl, süni buz meydançası olan «Megafun» inşa edilmiş, burada çoxlu sayda müxtəlif attraksionlar qurulmuşdur. Parkda 20 minədək müxtəlif növ dekorativ ağaclar, güllər əkilmiş, yaşıllıq salınmışdır.

Dövlətimizin başçısı Şəmkirdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Uşaq Akademiyasının açılışında da iştirak etmişdir. Bildirilmişdir ki, binanın tikintisinə ötən ilin mayında başlanılmış, bu ilin iyununda başa çatdırılmışdır. Akademiyada uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılmışdır. Xüsusi tədris proqramları əsasında fəaliyyət göstərəcək akademiyaya uşaqlar iki yaşından qəbul ediləcəklər. Burada uşaqlarla dünyada məşhur olan «Kiddie Academy» tədris proqramı əsasında hazırlıq prosesi keçiriləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün gənc nəslin intellektual və mənəvi inkişafının təmin edilməsi, vətənpərvərlik ruhunda tərbiyə olunması, onların innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin reallaşdırılması haqqında verdiyi sərəncamlara uyğun olaraq, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən «Təhsilə dəstək» layihəsi çərçivəsində istifadəyə verilmiş Bakı Oksford məktəbinin Şəmkir filialı ilə tanış olmuşdur. Hazırda məktəbdə 231 şagird təhsil alır. Məktəbin məzunları Azərbaycan Respublikasının attestatı ilə yanaşı, Kembric Universitetinin orta təhsil haqqında sertifikatını da əldə edirlər. Məktəbdə tədris ingilis dilində aparılır. Burada təhsil məktəbəqədər hazırlıq, ibtidai siniflər, orta məktəb və yuxarı məktəb mərhələləri üzrə keçirilir. Bununla yanaşı, təhsil ocağında beynəlxalq ikiillik «A-level» proqramları keçirilir. Bu proqramları bitirən şagirdlər beynəlxalq imtahanlarda müsbət qiymətlər aldıqda Britaniyanın müxtəlif universitetlərinə daxil ola bilərlər.

Dövlətimizin başçısı burada yeni tikilmiş yataqxana binası ilə də tanış olmuşdur.

Sonra Prezident İlham Əliyev Şəmkir şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir. Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, onları salamlayaraq demişdir: «Bu gün Şəmkir rayonunda bir neçə tədbir keçirilir. Onların içərisində içməli suyun verilməsi əlbəttə ki, xüsusi yer tutur. Bu layihənin icrası böyük əhəmiyyət kəsb edir. İçməli su insanlar üçün əsas məsələdir. Mən çox şadam ki, artıq Şəmkirdə də bu vacib infrastruktur layihəsi uğurla icra edilir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm».

Daha sonra dövlətimizin başçısı Şəmkirdə «Zəka» İntellektual Gənclər Mərkəzinin açılışında iştirak etmişdir. Ona məlumat verilmişdir ki, mərkəzdə tikinti işlərinə ötən ilin mayında başlanılmışdır. Prezident İlham Əliyev «Zəka» İntellektual Gənclər Mərkəzi, buradakı çəkiliş pavilyonu, müasir incəsənət muzeyinin milli üslubda yaradılmış prototipi olan art qalereya, debat zalları, yaradıcılıq və şahmat otaqları ilə tanış olmuşdur.

Həmin gün dövlətimizin başçısı «Excelsior Hotel Shamkir» mehmanxanasının da açılışında iştirak etmişdir. Ona məlumat verilmişdir ki, mehmanxana standart, qoşa çarpayılı və böyük çarpayılı 63 otaqdan ibarətdir. Bütün nömrələrdə ən yüksək səviyyədə istirahət üçün hər cür şərait yaradılmışdır. Ən son informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunan otaqların dizaynında Şəmkirin qədim xalçalarının ornamentlərindən istifadə edilmişdir.

Mehmanxananın istifadəyə verilməsi həm də çoxlu sayda yeni iş yerlərinin açılması deməkdir. Yeni mehmanxana Şəmkirin turizm potensialının göstəricisi olmaqla, bölgənin imkanlarını nümayiş etdirir. Azərbaycanda turizmin ölkə iqtisadiyyatının mühüm hissəsinə çevrilməsi, bu sahədə kiçik və orta sahibkarlıq üçün möhkəm bazanın yaradılması regionların infrastruktur cəhətdən inkişafını da təmin edir.

Prezidenti İlham Əliyev həmin gün Şəmkirdə əsaslı bərpa edilən Alman Lüteran kilsəsi ilə də tanış olmuşdur. Dövlətimizin başçısına məlumat verilmişdir ki, kilsədə bərpa işlərinə 2012-ci ilin mayında başlanılmış, bu ilin iyulunda sona çatdırılmışdır. 1909-cu ildə almanlar tərəfindən inşa edilən kilsə uzun illərdən sonra yenidən bərpa olunmuş, ərazisi abadlaşdırılmış və burada göz oxşayan park salınmışdır.

Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şəmkir hərbi birləşməsinin hərbi şəhərciyində aparılan abadlıq-quruculuq işləri ilə də tanış olmuşdur. Ali Baş Komandan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstü önünə gül dəstəsi qoymuşdur. Dövlətimizin başçısı hərbi hissənin ərazisində yeni inşa edilmiş əsgər yeməkxanası, poliklinika, su hovuzu və əsgər klubu ilə tanış olmuşdur. Məlumat verilmişdir ki, əsgər klubunun girişində Heydər Əliyev Muzeyi yaradılmışdır. Burada, həmçinin, müasir standartlara cavab verən 500 nəfərlik tamaşaçı zalı, kitabxana, oxu zalı, kompüter otağı, müxtəlif dərnəklər fəaliyyət göstərir.

# «ASAN Xidmət»in əhatə dairəsi genişlənir

*Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 3 saylı Bakı «ASAN xidmət» mərkəzinin açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərkəzin açılışında iştirak etmişdir.*



Mərkəzin fəaliyyəti ilə tanış olan dövlət başçısına məlumat verilmişdir ki, Bakının Yasamal, Səbail və Qaradağ rayonlarının əhalisinə xidmət göstərəcək mərkəzdə vətəndaşların qəbulu elektron növbə əsasında həyata keçiriləcək. Bunun üçün ən müasir avadanlıq quraşdırılmışdır.

Mərkəzdə ilk dəfə olaraq elektron şikayət köşkü və elektron rəy sorğusu xidmətləri göstəriləcəkdir. Elektron şikayət köşkündə «Skype» vasitəsilə vətəndaşların online qəbulu keçirilərək onların şikayətlərinə operativ şəkildə baxılacaqdır. Elektron rəy sorğusu vasitəsilə isə gündəlik vətəndaş məmnunluğunun səviyyəsi müəyyən ediləcəkdir.

Qeyd edilmişdir ki, mərkəz daim internetə açıq olan kompüterlərlə təchiz edilmişdir. Burada vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanmaları üçün şərait yaradılmışdır. Mərkəzdə əlillər üçün də hər cür imkan vardır. Gözdən əlillərin sərbəst hərəkəti üçün isə döşəməyə xüsusi örtüklər vurulmuş, lövhələr onların oxuya bildiyi müvafiq hərflərlə hazırlanmışdır.

«ASAN xidmət» mərkəzində vətəndaşların gözləyərkən vaxtlarını səmərəli keçirmələri üçün funksional-yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Mərkəzdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin haqqının, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkün olacaqdır.

Diqqətə çatdırılmışdır ki, «ASAN xidmət» mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlər göstərməsində vətəndaşların razı salınmasının, şəffaflığın təmin edilməsinin, korrupsiya hallarının istisna olunmasının, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiqinin, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin - «dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir» yanaşmasının formalaşdırılmasıdır.

Azərbaycan Prezidentinə «ASAN imza» sertifikatı və «ASAN imza» Sim kartı təqdim edilmişdir. Dövlətimizin başçısı mərkəzdə yaradılmış şəraitdən razılığını bildirmiş, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

*Davamı 2-ci səhifədə*

# Təhsil hər bir ölkənin gələcəyidir

*Sentyabrın 16-da - Bilik günündə Bakının Yasamal rayonundakı 158 nömrəli tam orta məktəb əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

Ölkəmizdə son illər təhsilin inkişafı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir, müxtəlif proqramlar icra olunur. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsil mühüm rol oynayır. Azərbaycanda əldə olunan bu uğurların daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər görülür. Son illərdə ölkədə yüzlərlə məktəb tikilmiş və ya əsaslı təmir edilmişdir. Yasamal rayonundakı 158 nömrəli tam orta məktəbdə aparılan yenidənqurma işləri də bu tədbirlərin davamıdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məktəbdə yaradılan şəraitlə tanış olmuşlar. Burada ulu öndər Heydər Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət və qayğını əks etdirən fotostend qurulmuşdur. Üç tədris və bir yardımçı korpusdan ibarət olan 1850 şagird yerlik bu məktəbdə 198 müəllim işləyir.

Şagirdlərin istifadəsinə iki informatika kabineti verilmişdir. Dövlətimizin başçısı ayrı-ayrı fənn kabinetləri ilə də tanış olmuşdur. Məktəbdə müxtəlif tədbirlərin keçirilməsi üçün 350 nəfərlik geniş akt zalı da yaradılmışdır. Məktəbin müəllim-şagird kollektivi ilə görüşən Prezident İlham Əliyev demişdir: «Təhsilin keyfiyyəti elə prosesdir ki, bu prosesin hüdudları yoxdur. Biz daim bu məsələni diqqət mərkəzində saxlamalıyıq. Çünki artıq dəfələrlə bu ifadə işlədilib: «Təhsil hər bir ölkənin gələcəyini təmin edir». Hər bir ölkənin inkişafını onun insanları, insanların bilikləri, istedadı müəyyən edir. Ölkələr vardır ki, orada təbii sərvətlər yoxdur. Ancaq o ölkələr dünyada ən inkişaf etmiş ölkələrdir. Biz də bu yolu getməliyik. Bizim üstünlüyümüz ondan ibarətdir ki, təbii sərvətlərimiz də var və biz təbii sərvətlərin işlənməsindən əldə edilmiş gəlirləri insan kapitalına, o cümlədən təhsil sahəsində aparılan islahatlara yönəldirik».

2 Mütərəqqi beynəlxalq təcrübəyə əsaslanan çevik vergi sistemi

3 Azərbaycanda biznes mühiti yüksək dəyərləndirilir

4 Dünya İqtisadi Forumunda ölkəmizin uğurları açıqlandı

5 Elektron ödəniş xidmətləri ilə bağlı yeni konsepsiya

# «ASAN Xidmət»in əhatə dairəsi genişlənir

*Əvvəli 1-ci səhifədə*



Xatırladaq ki, 29 dekabr 2012-ci ildə 1 saylı ASAN Xidmət Mərkəzinin açılışında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və Vergilər Nazirliyinin birgə layihəsi olan ASAN Xidmət layihəsi dövlət başçısına təqdim edilmişdir. Təqdimatda ASAN İmzanın üstünlükləri, onun bütün növ qurğularda - kompüterlərdə, planşetlərdə, telefonlarda rahatlıqla istifadə edilə bilməsi, Avropa direktivlərinin təhlükəsizliklə bağlı tələblərinə cavab verməsi və ölkədə elektron hökumətdən mobil hökumətə keçidin əsasını qoyması barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, ASAN İmza mobil imza sahəsində informasiya texnologiyaları üzrə beynəlxalq lider şirkətlər və dövlətlər tərəfindən böyük maraqla qarşılanır.

2013-cü ilin aprel ayında ASAN Sertifikat Xidmətləri Mərkəzi akkreditasiyadan keçərək şəhadətnamə almış və iyul ayından Azərbaycan vətəndaşlarına, əcnəbilərə, sahibkarlıq subyekti olan fiziki və hüquqi şəxslərə, dövlət orqanlarına ASAN İmzanın verilməsinə başlanılmışdır. 2 ay ərzində 20 mindən çox ASAN İmza şertifikatı verilmiş və ASAN İmza ilə aparılan əməliyyatların sayı 100 mini keçmişdir.

ASAN İmzanın əldə edilməsi çox sadədir - ASAN Xidmət Mərkəzlərinə və ya Vergilər Nazirliyinin xidmət strukturlarına müraciət edən hər kəs bir neçə dəqiqə ərzində ASAN İmzanı əldə edir və yerindəcə onun istifadəsi ilə bağlı təlimatlandırılır. İmzadan istifadə zamanı hər hansı sualı yaranarsa və ya texniki problemlə üzləşilərsə 7 gün 24 saat fasiləsiz olaraq Vergilər Nazirliyinin «195» Telefon-məlumat xidmətinə zəng edib yaranmış problemi dərhal aradan qaldıra bilərlər.

Dövlət orqanlarına, banklara, elektron hökumət portalına inteqrasiya olunan ASAN İmza sertifikatı gələcəkdə yeni tipli şəxsiyyət vəsiqələrinin çiplərinə də yüklənə biləcəkdir.

ASAN İmzanın əldə edilməsi bir neçə hüquqi şəxsdə çalışan və ya həmin hüquqi şəxslərə rəhbərlik edən şəxslərə maddi cəhətdən də çox sərfəlidir. Belə ki, bir ASAN İmza SİM kartını əldə edən və yalnız onun dəyərini ödəyən şəxs, işlədiyi müxtəlif hüquqi şəxslərlə bağlı imza sertifikatını həmin SİM karta ödənişsiz yükləyə biləcək. Yəni, hər bir imza sertifikatı üçün ayrıca SİM kartın əldə edilməsinə ehtiyac yoxdur. Bundan başqa, «İş (biznes)» sertifikatı əldə edən istənilən şəxsə «Şəxsi (vətəndaş)» sertifikat da ödənişsiz olaraq təqdim edilir.

Bu ayın sonunda Fransanın Nitsa şəhərində keçiriləcək «Dünya e-İD» konfransında ASAN İmza layihəsi yüksək keyfiyyətli informasiya texnologiyaları məhsulu kimi təqdim ediləcəkdir.

# 2013-cü ilin yanvar-avqust aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 4 milyard 486 milyon 614,8 min manat vəsait daxil olmuşdur

*Bu məbləğin 38,6%-i mənfəət vergisinin, 24%-i əlavə dəyər vergisinin, 12%-i fiziki şəxslərin gəlir vergisinin, 7,6%-i aksizlərin, 17,8%-i isə digər vergilərin payına düşür.*

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 2 milyard 405 milyon 61,2 min manat vəsait daxil olmuşdur.

Yanvar-avqust aylarında respublika üzrə 49 min 963 vergi ödəyicisi, o cümlədən elektron qaydada 29 min 261 (58,6%) vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 sentyabr 2013-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 523 min 599 olmuşdur.

2013-cü ilin yanvar-avqust ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 90,7% təşkil etmişdir.

**Yanvar-avqust aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə daxilolmalar**




# Çağrı Mərkəzinə müraciətlərin statistikası

*2013-cü ilin yanvar-avqust aylarında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi tərəfindən 176 min 199 müraciət cavablandırılmış, vergi ödəyicilərinə 351 min 674 mesaj göndərilmişdir.*

Müraciətlərin 120 min 227-si canlı rejimdə müfəttiş-operatorlar, 55 min 972-si səsli menyu vasitəsilə elektron operator tərəfindən cavablandırılmışdır. Müfəttiş-operatorlar tərəfindən cavablandırılmış suallar arasında vergi növləri (12,8%), elektron xidmətlər (24,2%), hesabatlar və onların doldurulma qaydaları (10,5%), qeydiyyat (11,5%) barədə suallar, səsli menyu vasitəsilə qəbul edilmiş müraciətlər arasında isə vergi növləri (49,2%) və dövlət büdcəsinə olan vergi borcları (27,1%) barədə müraciətlər üstünlük təşkil etmişdir.

Canlı əlaqə zamanı müfəttiş-operatorlar tərəfindən cavablandırılmış müraciətlərin sayı 2012-ci ilin müvafiq dövrünə nisbətən 25,4% artmışdır. Ötən dövr ərzində vətəndaşlardan şikayət (ərizə) və məlumat xarakterli 994 müraciət qəbul edilərək aidiyyəti üzrə göndərilmişdir.

Müraciətlərin 72,4%-i Bakı şəhərindən, 11,8%-i mobil operatorlardan, qalanı isə ölkənin müxtəlif bölgələrindən daxil olmuşdur.

# Əmlakın siyahıya alınması tədbiri

*Sentyabr ayının 14-də 3 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən Xaşmaz şəhərində fiziki şəxs Əhməd Mərdan oğlu Mərdanova məxsus «Röval» mebel mağazasında əmlakın siyahıya alınması həyata keçirilmişdir.*

Fəaliyyəti araşdırılarkən mağazanın 2381 manat vergi borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə bildiriş göndərilsə də borc məbləği qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Bu ilin iyul ayında Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi mağazadakı əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və 3 min manatlıq müxtəlif növ mebel dəsti müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Xaşmaz şəhəridə daha bir fiziki şəxs - Zaur Rafik oğlu Babayevə məxsus «Okean» mebel salonunda da əmlakın siyahıya alınması həyata keçirilmişdir. Mağazanın 1.247 manat məbləğində vergi borcunun ödənilməsini təmin etmək məqsədilə obyektdəki əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və 1.500 manatlıq mebel dəstləri siyahıya alınmışdır.

# CEIBC-yə üzv şirkətlərin nümayəndələrinin görüşü

*Sentyabrın 17-də «Four Seasons» hotelində Xəzər-Avropa İnteqrasiya İşgüzar Klubuna (CEIBC) üzv şirkətlərin nümayəndələrinin görüşü keçirilmişdir. Görüşdə «Xəzər-Avropa İnteqrasiya İşgüzar Klubunun üzv şirkətləri ilə iqtisadi əməkdaşlığın perspektivləri» mövzusunda müzakirələr aparılmışdır.*

Klubun prezidenti və baş icraçı direktoru Telman Əliyev qurumun fəaliyyəti barədə məlumat verərək bildirmişdir ki, Xəzər-Avropa İnteqrasiya İşgüzar Klubu «Caspian Energy International Media Group»un və Xəzər-Qara dəniz regionunda fəaliyyət göstərən ən böyük neft və qaz şirkətlərinin intensiv dəstəyi ilə 2002-ci ildə yaradılmışdır. CEIBC Xəzər, Qara Dəniz və Baltik dənizi ətrafındakı 50 ölkənin 500 üzv şirkətlərini və təşkilatlarını bir araya gətirən ən böyük və dinamik inkişaf edən regional təşkilatdır.

Görüşdə çıxış edən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) İqtisadi məsələlər üzrə vitse-prezidenti Süleyman Qasımov bildirmişdir ki, ötənilki görüşdən sonra «Caspian Energy International Media Group» ilə birgə fəaliyyət nəticəsində xarici şirkətlərlə birgə qrup yaradılmışdır. Həmin qrup tərəfindən «Azneft» İstehsalat Birliyinin Hacı Zeynalabdin Tağıyev adına neft-qaz çıxarma idarəsində əməyin ödənilməsi ilə bağlı pilot layihənin icra edilməsinə başlanılmışdır.

Ötən müddət ərzində həmin əməkdaşlar tərəfindən idarənin biznes prosesi öyrənilərək bütün vəzifələr təhlil olunmuş, iş yerlənin analizi və vəzifə standartları hazırlanmışdır.

**Azərbaycanın vergi sistemi: 2003-2013**

# Mütərəqqi beynəlxalq təcrübəyə əsaslanan çevik vergi sistemi

***(Əvvəli ötən sayımızda)***

*Azərbaycanın vergi sisteminin fəaliyyətinin ötən 10 ildə işlək mexanizmlər üzərində qurulması və innovativ yeniliklərə çevik reaksiyası ilə fərqlənməsi, ilk növbədə, beynəlxalq vergi sisteminə uğurlu inteqrasiyanın nəticəsidir. 2003-2013-cü illərdə digər ölkələrin vergi orqanları ilə ikitərəfli və çoxtərəfli əsasda qurulmuş əməkdaşlıq, habelə vergi sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlarla işgüzar əlaqələr praktik nəticələrlə zəngindir.*

Bu müddətdə Vergilər Nazirliyi ikitərəfli və çoxtərəfli vergi sazişləri şəbəkəsinin genişləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişafı, beynəlxalq tədbirlərin təşkili, uğurlu beynəlxalq təcrübənin tətbiqi, habelə milli vergi sisteminin dünyada tanıdılması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirmişdir.

Nazirliyin Beynəlxalq əlaqələr Baş İdarəsindən verilən məlumata əsasən, 2003-2013-cü illərdə 30 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında ikitərəfli müqavilə, 6 ölkə ilə vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə qarşılıqlı inzibati yardım və məlumat mübadiləsi haqqında saziş, 3 ölkə ilə vergi cinayətlərinə qarşı mübarizədə əməkdaşlıq haqqında saziş, 6 ölkə ilə vergi orqanları arasında əməkdaşlıq haqqında sazişlər imzalanmışdır.

***Ötən 10 ildə nazirliyin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda təşkil olunan müxtəlif beynəlxalq tədbirlər istər ölkənin vergi sisteminin tanıdılması, istərsə də qarşılıqlı təcrübə mübadiləsi baxımından səmərəli olmuşdur***

Biznes qeydiyyatı sahəsində ixtisaslaşmış beynəlxalq qurumlarla əlaqələrin genişləndirilməsinə çalışan nazirlik 2010-cu ildən Avropada Kommersiya Qeydiyyatçıları Təşkilatının (ECRF), 2012-ci ildən isə Korporativ Qeydiyyatçılar Forumunun (CRF) tamhüquqlu üzvü olmaqla, hər iki qurumun təşkilatçılığı ilə keçirilən tədbirlərdə yaxından iştirak edir.

Hazırda Vergilər Nazirliyinin İslam Ölkələrinin Vergi Orqanları Assosiasiyası (ATAIC), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), Amerika Ölkələrinin Vergi Administrasiyaları Mərkəzi (CIAT), Beynəlxalq Vergi və İnvestisiya Mərkəzi (ITIC) ilə sıx əməkdaşlığı mövcuddur. Eyni zamanda, beynəlxalq maliyyə qurumları - Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Dünya Bankı və s. ilə əməkdaşlıq yüksələn xətlə inkişaf edir.

Ötən 10 ildə nazirliyin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda təşkil olunan müxtəlif beynəlxalq tədbirlər istər ölkənin vergi sisteminin tanıdılması, istərsə də qarşılıqlı təcrübə mübadiləsi baxımından səmərəli olmuşdur. 2003-cü ildə Bakıda MDB iştirakçısı olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının 4-cü iclası, 2007-ci ildə IOTA-nın «Vergi ödəyicilərinə xidmət» İşçi Qrupunun iclası, 2008-ci ildə MDB iştirakçısı olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının 15-ci iclası təşkil edilmişdir.

2010-2013-cü illərdə IOTA-nın «ƏDV fırıldaqçılığının aşkarlanması və qarşısının alınması» İşçi Qrupunun iclası, Avrasiya Maliyyə Ekspertlərinin 7-ci illik seminarı, MDB iştirakçısı olan dövlətlərin vergi (maliyyə) təhqiqat orqanlarının Koordinasiya Şurasının 13-cü iclası, IOTA-nın «Vergi borclarının idarə edilməsi» İşçi Qrupunun iclası, Azərbaycan-Litva İkitərəfli Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 2-ci iclası, MDB iştirakçısı olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının 19-cu iclası, IOTA-nın Baş Əlaqələndirici Şəxslərinin 19-cu Forumu, OECD-nin «Çoxmilli müəssisələrin auditi» mövzusunda seminarı Bakı şəhərində keçirilmişdir.

2012-ci ilin fevralında Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) nümayəndə heyəti Azərbaycanda işçi səfərdə olmuşdur. Səfər çərçivəsində Vergilər Nazirliyinin Tədris Mərkəzində «Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə: nailiyyətlər və perspektivlər» mövzusunda konfrans keçirilmişdir. 2012 və 2013-cü illərin fevral aylarında - vergi orqanı əməkdaşlarının peşə bayramı ərəfəsində Bakıda beynəlxalq ekspertlərin iştirakı ilə «Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda vergi forumları keçirilmişdir.

Nazirlik vergitutma sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi sahəsində də bir sıra layihələr həyata keçirmişdir. 2003-cü ildə nazirlikdə Türkiyə təcrübəsi əsasında Telefon Məlumat Mərkəzi yaradılmış, 2005-ci ildə isə Fransa təcrübəsi əsasında vergi orqanlarına test üsulu ilə işə qəbul reallaşdırılmışdır. 2006-cı ildən Türkiyə təcrübəsi əsasında Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin, 2008-ci ildə Çili təcrübəsi əsasında ƏDV üzrə elektron hesab-fakturalar sisteminin, 2010-cu ildən Bolqarıstan təcrübəsi əsasında ƏDV-nin vahid depozit hesabının, 2010-cu ildən Serbiya təcrübəsi əsasında nəzarət-kassa aparatlarına məlumatların məsafədən elektron ötürülməsi qurğularının (GPRS) tətbiqi gerçəkləşdirilmişdir.

2011-ci ilin martından Avropa İttifaqının tvinninq texniki yardım aləti çərçivəsində «Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» adlı tvinninq layihəsinin həyata keçirilməsinə başlanılmış və 2013-cü ilin may ayında başa çatdırılmışdır. Layihənin məqsədi elektron auditin inkişafı sahəsində texnoloji, metodoloji və insan potensialının beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Layihənin reallaşdırılması zamanı Vergilər Nazirliyinin əsas tərəfdaşı isə Niderland Krallığının Vergi və Gömrük Administrasiyası olmuşdur. Bundan əlavə, «İnsan resurslarının inkişafı sahəsində Vergilər Nazirliyinin Tədris Mərkəzinə dəstəyin göstərilməsi» adlı tvinninq layihə sənədi 2011-ci ilin dekabr ayında İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir. Hazırda layihə üzrə tərəfdaş ölkənin seçilməsi istiqamətində müvafiq işlər görülür.

Nazirliyin əməkdaşlarının müxtəlif ölkələrdə keçirilən tədbirlərdə iştirakının təmin edilməsi də beynəlxalq əlaqələrin genişləndirilməsinə təkan verir. Beynəlxalq və regional təşkilatların vergi inzibatçılığının müxtəlif sahələrinə dair keçirdiyi müxtəlif formatlı tədbirlərdə, habelə qarşılıqlı təcrübə mübadiləsinin aparılması məqsədilə təşkil edilən işçi səfərlərdə nazirliyin nümayəndələrinin iştirakı təmin olunur.

2013-cü ilin birinci yarısında Vergilər Nazirliyinin 62 əməkdaşı 40 müxtəlif beynəlxalq tədbir və ya işçi səfərdə iştirak etmək məqsədilə xarici ölkələrə ezam edilmişdir. Vergilər Nazirliyi mütəxəssislərinin peşəkar bilik və bacarıqlarının artırılması baxımından IOTA və OECD tərəfindən təşkil edilən seminarlar da mühüm əhəmiyyətə malik olmuşdur.

**Samir MUSTAFAYEV**

# Azərbaycanda biznes mühiti yüksək dəyərləndirilir

*Dünya İqtisadi Forumunun (Davos Forumu) ənənəvi «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014» hesabatına görə Azərbaycanın dünyanın 148 ölkəsi arasında 39-cu yerdə qərarlaşması, ötən ilə nisbətən mövqeyində 7 pillə irəliləməsi respublikamızda biznes mühitinin liberallaşdırılması tədbirlərinin səmərəli nəticələr verdiyini bir daha təsdiqləyir.*

Davos Forumunun rəqabət qabiliyyətliliyi ölkənin və onun institutlarının ortamüddətli perspektivdə iqtisadi artım templərini təmin etmək qabiliyyəti kimi xarakterizə edir. Respublikamızın son 2 ildə bu göstərici üzrə 16 pillə irəliləməsi, ilk növbədə, ölkədə özəl sektorun inkişafına yönəlmiş təşkilati-institusional və qanunverici tədbirlərin nəticəsidir. Xatırladaq ki, Forumun hələ 2006-2007-ci illər üzrə hesabatında Azərbaycan 74-cü yerdə qərarlaşmışdı.

Dünya ölkələrinin iqtisadi inkişaf parametrlərinin müəyyənləşdirilməsində qurumun hazırladığı hesabatlar da mühüm rol oynayır. 30 ildən artıq müddətdə dövlətlərin rəqabətə davamlılıq səviyyəsini öyrənən qurum 1979-cu ildən qlobal rəqabət hesabatlarında dövlətlərin iqtisadiyyatının davamlı inkişafını şərtləndirən amilləri araşdırır. 2004-cü ildə dövlətlərin rəqabətə davamlılığının ölçülməsi üçün təkmil göstəricilər toplusu yaradılaraq «Qlobal Rəqabət Qabiliyyəti İndeksi» kimi Dünya İqtisadi Forumuna təqdim edilib.

Dövlətlərin rəqabətə davamlılığı 12 əsas meyar üzrə müəyyənləşdirilir. Burada texniki tərəqqi, makroiqtisadi sabitlik, səmərəli idarəetmə, qanunun aliliyi, şəffaf və təkmil işləyən qurumlar, korrupsiyanın azlığı, bazara yönümlülük, şirkətlərin təkmilləşdirilməsi, tələbat, bazarın həcmi və bir çox başqa istiqamətlər əsas götürülür. Bu göstəricilərin hər biri güclü nəzəri əsaslara malikdir və biri digərini istisna etmir.

Təşkilatın son illərdə Azərbaycanla münasibətləri yüksələn xətlə inkişaf edir. Xatırlatmaq yerinə düşər ki, Davos Forumu 2013-cü ilin aprelində Bakıda xüsusi toplantı keçirib. «Cənubi Qafqaz və Mərkəzi Asiyanın inkişafı üzrə strateji dialoq» mövzusunda keçirilmiş Bakı Forumu ümumən Cənubi Qafqaz və Orta Asiya regionlarında iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafına töhfəsini verib.

Davos Forumunun ənənəvi illik hesabatında Azərbaycanın daha 7 pillə irəliləməsi respublikamızda biznesə başlama prosedurlarının ildən-ilə sadələşdirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması tədbirləri ilə sıx şəkildə bağlıdır. 2013-cü il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər mütərəqqi xarakteri ilə ölkədə biznes mühitinin yaxılaşmasına, iqtisadiyyatın rəqabət qabiliyyətinin güclənməsinə mühüm töhfə verib.

Kiçik və orta sahibkarlıq subyektlərinə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artırılması, iş adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, sahibkarlıq subyektlərinin qeydiyyatı sisteminin sadələşdirilərək «vahid pəncərə» prinsipi əsasında aparılması, gömrük orqanlarında da bu sistemin təşkili, texnoparkların yaradılması, korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi və digər addımlar bu baxımdan xüsusi vurğulanır.

Son illər, həmçinin, ölkədə sahibkarlığın inkişafının yeni təşkilati-iqtisadi modellərinin - xüsusi iqtisadi zonaların, sənaye şəhərciyinin və biznes-inkubatorların tətbiqi sahəsində müvafiq işlər aparılır. İstehsal sferasında sahibkarlıq strukturlarının yaradılmasının məqsədəuyğun istiqamətləndirilməsi və stimullaşdırılması vasitəsilə innovasiyaya əsaslanan yüksək keyfiyyətli əmtəələrin və xidmətlərin təklifinin sabit artımına dövlət tərəfindən müvafiq şərait yaradılıb.

Onu da bildirək ki, Davos Forumu ayrı-ayrı ölkələrdəki vəziyyətin qiymətləndirilməsi prosesinə tərəfdaş ictimai qurumları da cəlb edir. 2005-ci ildə belə tərəfdaş qurumun seçilməsi məqsədilə Forumun nümayəndələri Azərbaycanda imic araşdırması aparıblar. Yekun qiymətləndirmələrdən sonra Azərbaycan Marketinq Cəmiyyəti tərəfdaş ictimai qurum seçilib və əməkdaşlıq barədə saziş imzalanıb. Razılaşmaya əsasən, cəmiyyət Forumun xüsusi təlimat və iş qrafiki əsasında Azərbaycanın rəqabətə davamlılıq səviyyəsinin qiymətləndirilməsi prosesində yaxından iştirak edir.

Davos Forumunun sifarişi əsasında Azərbaycandakı iqtisadi vəziyyətin dəyərləndirilməsi istiqamətində sorğular keçirdiyini deyən Azərbaycan Marketinq Cəmiyyətinin sədri Rəhim Hüseynov bildirib ki, bu məqsədlə respublikanın 100-dək tanınmış iqtisadçı ekspertinin rəyi əsas götürülür: «Dünya İqtisadi Forumu hər ilin yanvarında bizə xüsusi sorğu-anket vərəqələri göndərir. Qurumun təlimatına əsasən, biz həmin sorğu-anket vərəqələrini respublikanın 100-dək iqtisadçı ekspertinə təqdim edirik. Sorğu-anketdə iqtisadiyyatın müxtəlif sahələrinə dair çoxsaylı suallar öz əksini tapır. Tələbə əsasən, biz həmin anket-sorğu vərəqələrinin orijinalını Foruma göndəririk. Yəni sorğuların keçirilməsinə və cavablandırılmasına ciddi nəzarət var. Hər ilin avqust ayının sonuncu həftəsi yekun nəticələr məlum olur və bizə də göndərilir».

İqtisadçı ekspert hesab edir ki, Davos Forumunun son hesabatı Azərbaycanın regiondakı rolunun və iqtisadi potensialının yüksək dəyərləndirildiyinə dəlalət edir: «Ənənəvi «Qlobal Rəqabətlilik İndeksi»nə görə Azərbaycanın dünyanın bu il 148 ölkəsi arasında 39-cu yeri tutması və ötən ilə nisbətən 7 pillə irəliləməsi qurumun ekspertlərinin ölkəmizdə biznes mühitinin liberallaşdırılması tədbirlərinə verdikləri qiymətdir. Son illər ölkədə biznesə başlama prosedurlarının sadələşdirilməsi, ümumilikdə yerli və xarici sahibkarlar üçün daha əlverişli mühitin yaradılması istiqamətində mühüm işlər görülüb. Sahibkablıq subyektlərinin «bir pəncərə» sistemi ilə qeydiyyatına başlanması, 2011-2012-ci illərdə fiziki və hüquqi şəxslərin elektron formada, cəmi bir neçə dəqiqə ərzində qeydiyyata alınması son dərəcə mühüm irəliləyişlərdir. Elektron xidmətlər sahəsində tətbiq olunan yeniliklər də bu baxımdan mühüm əhəmiyyət kəsb edir».

**S.MUSTAFAYEV**

# E-xidmətlər iqtisadi inkişafa stimul verir

*Kommunal, rabitə xidmətlər və ya müxtəlif vergi və rüsumlara görə ödənişlər həyata keçirmək gündəlik məişət qayğılarımızın arasında mühüm yer tutur. Ancaq elektron xidmətlərin həyatımıza və gündəlik məişətimizə müdaxiləsi bu cür qayğılardan azad olmaq üçün böyük imkanlar yaratmaqdadır. Azərbaycanda elektron xidmətlərin rolunun və keyfiyyətinin artırılması isə dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir.*

## İnternet-bankinq müasir tarixin mühüm hadisəsi hesab olunur



«Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanında göstərildiyi kimi, ölkəmizin davamlı və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi, dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədilə informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilmiş və bu sahədə mühüm tədbirlər görülmüşdür. Həmçinin Vergilər Nazirliyinin elektron xidmətlərin tətbiqi sahəsində ardıcıl şəkildə apardığı işlər həm vergi ödəyiciləri, həm ictimaiyyət, həm də beynəlxalq aləmdə təqdir edilir. Mütəxəssislərin qənaətinə görə, elektron xidmətlərin tətbiqi iqtisadiyyatın yalnız bir sahəsi ilə məhdudlaşmır, gündən-günə öz əhatə dairəsini genişləndirir. Son vaxtlar internet bütün dünyada çox mühafizəkar bir sahə sayılan bank xidmətlərinə də müdaxilə etmişdir. İndi bank xidmətləri sahəsində yeni bir termin - «İnternet-bankinq» anlayışı meydana gəlmişdir. İnternet sisteminin bank sektoruna inteqrasiyası ilə artıq istənilən bank müştərisi (burada söhbət öz xidmətləri sırasında internet-bankinqi artıq tətbiq etməyə başlamış bankların müştərilərindən gedir) özünün müştəri nömrəsi və şifrəsindən istifadə etməklə etibarlı şəkildə öz hesabına daxil olub bank xidmətlərindən faydalana bilir. İnternet-bankinqin, başqa sözlə, internet vasitəsilə bank xidmətlərinin universallığı ondan həm fiziki şəxslərin, həm də müəssisələrin istifadə etməsinə imkan yaradır və pulun hərəkətinin idarə olunmasının effektivliyini və operativliyini əhəmiyyətli şəkildə artırır. Ödənişlərin internet vasitəsilə edilməsinin texniki icrası isə çox sadə qurulmuşdur. İnternet-bankinq sistemindən istifadə etmək ofis proqramları işlətmək qədər sadədir, bunun üçün kompüter sahəsində hər hansı əlavə bilik və bacarıqlara ehtiyac yoxdur.

İnternet-bankinqin yaratdığı başlıca imkan müştərilər üçün rahatlıqdır. Bu, vergi ödəyicilərini, vətəndaşları əlavə get-gəllərdən, lazımsız kağız qayğılarından azad edir, eyni zamanda öz vaxtını yüksək qiymətləndirən insanlara imkan yaradır ki, bankda hesab açıb onu internet vasitəsilə idarə etsin. Digər tərəfdən, yeni texnologiyalar bütün zəruri informasiyaların operativ şəkildə alınmasına şərait yaradır ki, bu da maliyyə prosesləri barədə məlumatlı olmaq istəyən hər kəs üçün faydalıdır. Nəhayət, internet-bankinq xərclərə qənaət etməyə imkan yaradır. Hesablaşmaların avtomatlaşdırılması internet vasitəsilə bank xidmətlərinin təşkilinə çəkilən xərcləri azaldır. Bu isə bank əməliyyatlarında tarifləri aşağı salmağa imkan verir.

Bəzi analitiklər internet-bankinqi müasir tarixin mobil telefonların kəşfi qədər mühüm hadisəsi hesab edirlər. İnternet-bankinqin yaratmış olduğu yeni imkanlar onu dünyada ən dinamik inkişaf edən bank xidmətləri sırasına gətirmişdir. Ən yaxın vaxtlarda heç bir bank internet vasitəsilə xidmətlər göstərmədən öz işini irəli apara bilməyəcək. Bu prosesdən kənarda qalan banklar öz müştərilərini itirəcəklər. Çünki bank hesablarının dünyanın istənilən yerindən real vaxt rejimində idarə edilməsinin mümkün olduğu zəmanəmizdə bank xidmətlərinin göstərilməsində sürət və zaman amili mühüm rol oynayır. Proseslərin gedişi göstərir ki, internet-bankinq xidmətləri bankların əksəriyyəti üçün standartlaşır və rahatlıq, yığcamlıq, operativlik bank müştərilərinin əsas tələbatına çevrilir.

**Rəşad SADIQOV**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

# Aksiz markaları və onun mahiyyəti

Aksizli malların ayrı-ayrı növlərinə görə aksiz yığımını təmin etmək üçün adətən fiskal markalar tətbiq edilir. Vergitutma tarixi boyu aksiz markası, aksiz banderolu və aksiz abonementləri (fransızcadan «abonnement», almancadan «abfindung» sözündən götürülüb) fiskal markalar kimi tətbiq edilir. Bu markaların tətbiqi bir tərəfdən aksiz ödənilməmiş malları vaxtında aşkar etməyə imkan verir, digər tərəfdən alıcıya aldığı aksizli malın keyfiyyətini təsdiq etməyə şərait yaradır.

19-cu əsrin əvvəllərində Azərbaycanda aksiz markaları papirus, yəni xüsusi növ kağızdan hazırlanmış nazik uzun lentlər şəklində idi və tütün məhsulunun qutu və paketləri, şüşə butulkalarının tıxacları üzərinə yapışdırılırdı.

## *Aksiz markalarından istifadənin əsas üstünlüyü aksiz ödənilməsinə nəzarətinsadə olması ilə bağlıdır*

Hazırkı dövrdə aksiz markalarından bir qayda olaraq kiçik tutumlu qablarda alkoqollu içkilərin və qutularda tütün məmulatlarının pərakəndə satışı zamanı istifadə olunur. Aksiz markalarından istifadənin əsas üstünlüyü aksiz ödənilməsinə nəzarətin sadə olması ilə bağlıdır. Yəni bu sahədə nəzarət aksizli malların üzərinə aksiz markasının yapışdırılmasına və onların sayına nəzarət etməkdən ibarədir.

Aksiz markalarının əsas çatışmazlığı onların saxtalaşdırılmasının asan olması ilə əlaqədardır. Aksizli mallara tətbiq olunan aksiz markalarının üzərində aşağıdakılar mütləq əks etdirilir:

- ölkənin simvolları;
- markanın seriyası;
- markanın sıra nömrəsi;
- markanın təyinatı;
- markanın növü.

Qablaşdırılmamış halda istisna olmaqla içməli spirt, spirtli içkilərin bütün növləri və pivə, tütün məmulatları Azərbaycanda aksiz markaları ilə markalanmalıdır.

Tətbiqi təyinatına müvafiq olaraq «daxili istehsal», «idxal» və «müsadirə» üçün aksiz markaları nəzərdə tutulur və onlar bir-birindən rənglərinə görə fərqlənir.

*Aksizli malların növündən asılı olaraq aşağıda göstərilən aksiz markaları tətbiq edilir:*

- içməli spirt üçün - «etil (yeyinti) spirtli» aksiz markası;
- spirtli içkilərin bütün növləri üçün - «alkoqollu içkilər» aksiz markası;
- pivə üçün - «pivə» aksiz markası;
- tütün məmulatları üçün - «tütün məmulatı» aksiz markası.

Aksiz markaları ilə markalanmalı olan aksizli malların siyahısı, aksiz markalarının yapışdırılması qaydaları və bu qaydalara riayət edilməsi xüsusi normativ-hüquqi sənədlərlə tənzimlənir. Azərbaycanda aksizli malların istehsalçılarının müvafiq binalarında və ya anbarlarında (şəxsi istehlak üçün anbarlar istisna olmaqla) nəzarət postları, ölçü cihazları və plomblar qurulmaqla vergi nəzarətinin həyata keçirilməsi qaydaları mövcud qanunvericilikdə təsbit edilmişdir.

*Aksiz markalarının aşağıdakı məkanda yapışdırılmasına icazə verilir:*

- ölkə ərazisində istehsal olunan mallar - istehsal olunan yerdə;
- ölkə ərazisinə idxal olunan pivə istisna olmaqla, yerdə qalan mallar - ölkə hüdudlarından kənardakı istehsal yerində, yaxud satış üzrə vasitəçinin müəyyən etdiyi yerdə;
- ölkə ərazisinə idxal olunan pivə - ölkənin gömrük-buraxılış məntəqəsində.

*Aksiz markalarının aşağıdakı şəxslər tərəfindən yapışdırılmasına icazə verilir:*

- ölkə ərazisində istehsal olunan mallar - malın istehsalçıları;
- ölkə ərazisinə idxal olunan pivə istisna olmaqla, yerdə qalan mallar - həmin malların ölkə hüdudlarından kənardakı istehsalçıları, yaxud satış üzrə vasitəçilər;
- ölkə ərazisinə idxal olunan pivə - gömrük orqanı əməkdaşının nəzarəti altında həmin malı idxal edən şəxslər.

Aksizli mallara müvafiq markalar xüsusi qayda üzrə yapışdırılır. Yəni bu cür marka ilə markalanmış mal istifadə edildikdə onun üzərinə yapışdırılmış marka tam yararsız hala düşməlidir. Bunun üçün:

- içkilərdə - markanın bir hissəsi içki qabının qapağın (və ya tıxacın) üst hissəsindən başlayıb, qalan hissəsi qabın boğazlığı üzərinə yapışdırılır;
- qutusu bərk olan tütün məmulatlarında - qutunun qapağı ilə bu qapağın bağlandığı hissəyə yapışdırılır;
- qutusu yumşaq olan tütün məmulatlarında - qutunun üst tərəfinin mərkəz hissəsinə və hər iki tərəfin hissələrinə yapışdırılır.

Qanunvericiliyə görə, belə aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq, eyni zamanda aksiz markasını saxtalaşdırmaq və saxta aksiz markasından istifadə etmək qadağandır və əgər bu hal baş verərsə, həmin mallar dövlət nəfinə müsadirə edilir və təqsirkar şəxslər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunurlar.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## ƏDV məqsədləri üçün qeydiyyat

***Əlavə dəyər vergisi məqsədləri üçün qeydiyyata alınmaq istəyirəm. Bu proses Vergi Məcəlləsi ilə necə tənzimlənir?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Məcəllə) 153-cü maddəsinə əsasən, əlavə dəyər vergisi (ƏDV) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə Məcəllənin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir.

Məcəllədə ƏDV məqsədləri üçün qeydiyyata alınmağın iki növü fərqləndirilir. Məcəllənin 155-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 120000 manatdan artıq olan şəxslər (218.1.1.1-ci və 218.1.1.3-cü maddələrdə göstərilənlər istisna olmaqla) Məcəllənin 157.3.1-ci maddəsində göstərilən tarixdən 10 gün ərzində ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludurlar. Bir əqd və ya müqavilə üzrə əməliyyatın ümumi dəyəri 120000 manatdan artıq olduqda bu əməliyyat ƏDV tutulan əməliyyat sayılır və həmin əməliyyatı həyata keçirən şəxs əməliyyatın aparıldığı günədək ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməlidir. Məcəllənin 157.3.1-ci maddəsinə əsasən, ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 120000 manatdan artıq olduqda qeydiyyat növbəti ayın birinci günündə, bir əqd və ya müqavilə üzrə ƏDV-yə cəlb olunan əməliyyatın ümumi dəyəri 120000 manatdan artıq olduqda qeydiyyat əməliyyatın aparıldığı günədək qüvvəyə minir.

Bundan əlavə, Məcəllənin 156-cı maddəsində ƏDV məqsədləri üçün şəxs tərəfindən könüllü qaydada qeydiyyata alınmaq üçün müraciətin edilməsi nəzərdə tutulmuşdur: maddənin 1-ci bəndinə əsasən, qeydiyyatdan keçməli olmayan sahibkarlıq fəaliyyəti göstərən şəxs vergi orqanına ƏDV məqsədləri üçün qeydiyyat haqqında könüllü ərizə verə bilər. Məcəllənin 157.3.2.-ci maddəsinə müvafiq olaraq könüllü qeydiyyat zamanı qeydiyyat haqqında ərizənin verildiyi aydan sonrakı hesabat dövrünün birinci günündə qeydiyyat qüvvəyə minir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Dünya İqtisadi Forumunda ölkəmizin uğurları açıqlandı

## *Azərbaycan nümayəndə heyəti Dünya İqtisadi Forumunun Çində keçirilən illik iclasında iştirak edib*

*Sentyabrın 11-13-də Çin Xalq Respublikasının (ÇXR) Dalyan şəhərində Dünya İqtisadi Forumunun yeddinci illik iclası keçirilib.*

Lent.az-ın yaydığı məlumata görə, «Yay Davosu» hesab edilən iclasda 90-dan çox ölkədən 1600-ə yaxın nümayəndə, o cümlədən hökumət rəsmiləri, nazirlər, regional təşkilatların və iri şirkətlərin rəhbərləri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər. İclas hökumət qurumları, özəl sektor, beynəlxalq və regional iqtisadi qurumlar arasında müxtəlif mövzularda müzakirələrin aparılması baxımından yaxşı imkan hesab olunur. Forumun məqsədi dünya iqtisadiyyatının yeni elmi-texniki nailiyyətlərin və inkişaf modellərinin tətbiqi əsasında inkişaf etdirilməsi yollarının müzakirəsi olub. «Yay Davosu», həmçinin, qərar qəbul edən şəxslər, dinamik inkişaf edən şirkətlərin strateqləri və liderləri arasında fikir mübadiləsi üçün də əlverişli imkandır. Dalyandakı Beynəlxalq Konfrans Mərkəzində təşkil olunan iclasın açılış mərasimində Çinin Dövlət Şurasının sədri (baş nazir) Li Keçyan, Dünya İqtisadi Forumunun təsisçisi və icraçı direktoru Klaus Şvab çıxış ediblər.

Son illər Azərbaycanın Dünya İqtisadi Forumunun işində fəallığı, xüsusən Prezident İlham Əliyevin forumun iclaslarında şəxsən iştirakı ölkəmizə olan marağı xeyli artırıb. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumunun «Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq» mövzusunda iclası bu ilin aprelində Bakıda keçirilib. Ölkəmiz bu tədbiri təşkil etməklə regionun iqtisadi cəhətdən aparıcı ölkəsi olduğunu beynəlxalq arenada bir daha təsdiq edib. Dalyanda keçirilən illik iclasda Azərbaycan rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, sənaye və energetika naziri Natiq Əliyev, ARDNŞ-nin vitse-prezidenti Elşad Nəsirov, ölkəmizin Çindəki səfiri Lətif Qəndilov və digər şəxslərdən ibarət nümayəndə heyəti ilə təmsil olunub. Azərbaycan nümayəndə heyətinin üzvləri iclasın «Dünya iqtisadi liderlərinin qeyri-rəsmi görüşü: növbəti sərhədlərin yaradılmasına dair inkişaf», «Rəqəmli iqtisadiyyatın qorunması», «22-ci əsrdə İpək Yolunun kəşfi»», habelə enerji, kibermöhkəmlilik, rəqəmsal infrastrukturun çatdırılması və digər mövzulardakı müzakirələrdə çıxışlar edib, ölkəmizin dinamik inkişafı, son illər müxtəlif sahələrdə əldə olunan nailiyyətlər barədə danışıblar.

İclas iştirakçılarına məlumat verilib ki, son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında iqtisadi baxımdan dinamik inkişafa nail olunub. Həyata keçirilən islahatlar nəticəsində əlverişli sərmayə mühiti yaradılıb, bu da öz növbəsində bazar iqtisadiyyatının inkişafına yol açıb. Eləcə də ümumi daxili məhsulun (ÜDM) həcmi bir neçə dəfə artıb, ölkənin valyuta ehtiyatları rekord həddə çatıb, inkişaf və rəqabətqabiliyyətlilik, yoxsulluğun aradan qaldırılması və adambaşına düşən ümummilli gəlirin artım göstəriciləri üzrə ciddi irəliləyişlər əldə edilib. Bir neçə il əvvəl borc alan ölkə olan Azərbaycan hazırda özü borc verən dövlətdir və bir sıra ölkələrin iqtisadiyyatına sərmayə yatırır. Bu ilin fevralında ilk milli rabitə peykini orbitə çıxaran Azərbaycan kosmik sənayesi olan ölkələr sırasına qoşulub. Çıxışlarda qeyd olunub ki, bu nailiyyətlər beynəlxalq iqtisadi və maliyyə qurumlarının hesabatlarında da əksini tapıb. Belə ki, Dünya İqtisadi Forumunun son «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014» reytinqinə əsasən, Azərbaycan dünya ölkələri sıralamasında 39-cu mövqeyə yüksəlib. 2008-2009-cu illər dünya maliyyə böhranı zamanı bir çox ölkələr ciddi iqtisadi çətinliklərlə üzləşsələr də, Azərbaycan müsbət iqtisadi inkişaf trendini qoruyub saxlayıb və yuxarı orta gəlirli ölkələr sırasına qoşulub. Azərbaycanın liderliyi ilə reallaşan bir sıra enerji və nəqliyyat layihələri təkcə bölgə üçün deyil, bütövlükdə dünya iqtisadiyyatı üçün əhəmiyyətlidir.




*Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Nağdsız ödəniş sisteminin inkişaf perspektivləri», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 44 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata layiq görülmüşdür.*

*Müsabiqədə mükafata layiq yer tutmuş növbəti məqaləni təqdim edirik.*

# Nağdsız hesablaşmalara keçmək zamanın tələbidir

## *Azərbaycan hökuməti ölkədə nağdsız hesablaşmaların dairəsini genişləndirmək məqsədi ilə əhəmiyyətli addımlar atır*

Dünyanın əksər dövlətləri, xüsusilə inkişaf etmiş ölkələr iqtisadiyyatda şəffaflığın artırılması və maliyyə intizamının gücləndirilməsi məqsədi ilə maliyyə əməliyyatlarına nəzarət sahəsində getdikcə daha həssas mövqe nümayiş etdirirlər. Bu, özünü həm nağd hesablaşmaların məhdudlaşdırılması, həm də nağdsız hesablaşmaların stimullaşdırılması üzrə həyata keçirilən tədbirlərdə daha aydın göstərir. Çünki nağdsız hesablaşmalar zamanı qarşıya çıxan korrupsiya halları, eləcə də kölgə iqtisadiyyatı aradan qalxır, büdcəyə əlavə vəsait daxil olur, vaxt itkisi və risklər minimuma endirilir. Bu sistemin inkişaf etməsi vergitutma bazasının genişlənməsinə, vergiyə cəlb olunan gəlirlərin düzgün müəyyən edilməsinə, şəffaflıq və etibarlılığa möhkəm zəmin yaradır.

Azərbaycanda son dövrlər nağdsız dövriyyənin stimullaşdırılması istiqamətində aparılan maarifləndirici və stimullaşdırıcı tədbirlər müsbət nəticələrini göstərir. Əgər 10-15 il bundan əvvəl Azərbaycan vətəndaşlarının banklara inam və etibarı yox dərəcəsində idisə və burada yerləşdirilən vəsaitin itirilmə təhlükəsi kimi narahatlığı vardısa, artıq dövlətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu kimi stereotiplər aradan qalxmışdır.

Nağdsız hesablaşmalar - pul nişanlarından istifadə etmədən ödəniş sənədləri vasitəsilə edilən ödənişlər, bank hesabında köçürmə yolu ilə həyata keçirilən maliyyə hesablaşmalarıdır. Bu halda pul vəsaiti tədavülçünün hesabından alıcının hesabına köçürülür. Nağdsız hesablaşmalar təsərrüfat daxilində müəyyən sistemlər əsasında təşkil olunur, burada nağdsız hesablaşmaların təşkilinin bütövlüyü prinsipi, təşkilatlara təqdim edilən tələblər, təsərrüfatın müəyyən konkret şəraiti, eləcə də hesablaşmaların forma və üsulları və bu metodların sənəd dövriyyəsi ilə sıx bağlılığı nəzərdən keçirilir.

### Beynəlxalq təcrübə

İsveç 1661-ci ildə kağız əskinazları tətbiq edən ilk Avropa dövləti olmuşdur, indi isə ondan imtina etməyə ən yaxın ölkədir. İsveçdə avtobuslar nağd pul qəbul etmir, ödəmə əvvəlcədən doldurulmuş kart və SMS-lə aparılır. Hətta bəzi banklar nağd pul verməkdən imtina edirlər. Əskinazlar və sikkələr İsveç iqtisadiyyatının 3 faizini təşkil edir. Bu göstərici avrozonada 9, ABŞ-da isə 7 faizdir.

İtaliya hökuməti 2012-ci ilin iyul ayından 1000 avrodan yuxarı nağd hesablaşmaları məhdudlaşdıran qərar qəbul etmişdir. Təxminlərə görə, İtaliya hər il vergi yayınmalarından 120 milyard avro itirir. Bundan əlavə, ölkə nağd hesablaşmaların həyata keçirilməsi üçün işçi qüvvəsi və təhlükəsizlik tədbirlərinə ildə 10 milyard avro xərcləyir.

ABŞ-da irihəcmli nağd hesablaşmalar qadağan olunmur. Ancaq hər bir bank 10 min dollardan yuxarı depozit, mübadilə və ya pul çıxarma barədə hökumətə məlumat verməyə borcludur.

«McKenzi» şirkəti tərəfindən aparılan araşdırmalara əsasən, dünyada nağd hesablaşmaların 25 faizi 5-15 avro məbləğində aparılan əməliyyatları əhatə edir. Şirkət bazar araşdırmaları nəticəsində belə qənaətə gəlmişdir ki, bu əməliyyatların 40 faizinin kart vasitəsilə aparılmasına nail olmaq olar. Bu isə kiçik məbləğlər üçün kart ödəmələrini asanlaşdırmağı tələb edir. Bu məqsədlə kart şirkətləri kredit kartında çip əsaslı (chip-based) funksiya yaratmışlar (məsələn, «MasterCard»ın «PayPass» funksiyası).




NFC əsaslı sim-kartlar (yaxın məsafə rabitəsi) - smartfonlar üçün nəzərdə tutulan, 2 analoji aləti bir-birinə toxundurmaqla və ya yaxınlaşdırmaqla radio rabitəsi yaratmaq üçün istifadə olunan standartdır. Bundan təmassız ödəmələr və məlumat mübadiləsi üçün geniş istifadə olunur. NFC sistemi ilə təchiz edilmiş mobil telefonlarda kredit/debet kartlarının məlumatlarını yerləşdirməklə, mobil telefonu NFC oxuma qabiliyyətinə malik ödəniş terminalına yaxınlaşdırıb, zəruri məbləği daxil edib ödəniş aparmaq mümkündür.

Nağdsız ödəmələrin genişləndirilməsi məqsədi ilə NFC əsaslı sim-kartların istifadəsi geniş yayılmışdır. «PayPass» və «payWave» proqram təminatının tətbiqi ilə mobil vasitələrdən ödənişlərin edilməsi genişlənməkdədir. Müxtəlif ölkələrdə mobil operatorlar bu funksiyaların sim-kartlara yüklənməsini genişləndirir.

Dünya təcrübəsində vergidən yayınmaya qarşı mübarizənin, şəffaflıq və hesabatlılığın vacib amili kimi qəbul edilən nağdsız ödənişlərin həcminin genişləndirilməsi üçün maarifləndirmə və təbliğat vasitələrindən əlavə, inzibati metodlardan da geniş istifadə olunur. Bir sıra ölkələrin maliyyə və vergi qanunvericiliyində əksini tapmış tədbirlərdən biri də nağdsız ödənişlər üçün müəyyən limitin müəyyənləşdirilməsidir.

### Azərbaycanda nağdsız hesablaşmalar inkişaf edir

2012-ci ilin statistik göstəricilərindən məlum olur ki, ölkəmizdə nağdsız ödənişlərin miqdarı ötən illərlə müqayisədə artmışdır. Vətəndaşların ödəniş kartlarının sayının çoxalması, lazımi infrastrukturların yaradılması dövriyyədə olan nağd pul kütləsinin həcminin azalmasına səbəb olmuşdur. Bu gün ölkəmizdə POS-terminal şəbəkəsi çox genişdir və artıq hava limanından tutmuş bütün nəqliyyat, xidmət sahələri və ticarət obyektləri POS-terminallarla təmin edilmişdir.

Azərbaycan hökuməti ölkədə nağdsız hesablaşmaların dairəsini genişləndirmək məqsədi ilə əhəmiyyətli addımlar atır. Görülən tədbirlərin nəticəsidir ki, həm nağdsız hesablaşmaların miqdarı ilə bağlı artım hiss olunur, həm də bu sahədə vətəndaşların biliklərinin getdikcə zənginləşməsi nəzərə çarpır. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dövlətimizin başçısı bu məsələyə xüsusi diqqət ayırmış və ölkədə nağdsız ödənişlərin dairəsinin genişləndirilməsinin labüdlüyünü vurğulamışdır.

Artıq ölkədə su, işıq, telefon, internet və qaz pullarının xüsusi kartlar vasitəsilə ödənilməsi həyata keçirilir. Azərbaycanda elektron ticarət tərəqqi etməkdədir və bu sahənin gündən-günə inkişaf etdiyini görürük.

Mərkəzi Bankın İdarə Heyəti sədrinin birinci müavini Alim Quliyev son müsahibələrinin birində bildirmişdir ki, Azərbaycanda nağdsız ödənişlərin inkişafı və nağd ödənişlərin məhdudlaşdırılması istiqamətində görülməsi planlaşdırılan bütün tədbirlər bir sıra mühüm iqtisadi məqsədlər güdür. Onun sözlərinə görə, hazırda ölkədə təxminən 5 milyon plastik kart vardır, lakin müxtəlif tədbirlər həyata keçirmədən, yalnız kartların sayını artırmaqla hər hansı müsbət nəticə əldə etmək mümkün olmayacaqdır. Bu səbəbdən, Mərkəzi Bank nağdsız ödənişlərin artırılması və nağd ödənişlərin məhdudlaşdırılması üzrə müəyyən tədbirlər həyata keçirir. Həmçinin, hökumətə bununla bağlı təqdim edilən təkliflər paketində daha ciddi tədbirlərin görülməsi nəzərdə tutulur.

Hazırda Azərbaycanda müşahidə olunan nağd pulların ümumi pul kütləsində xüsusi çəkisi əvvəlki illərlə müqayisədə müəyyən dərəcədə aşağı düşsə də, hələ də yüksək səviyyədədir. Nağdsız ödənişlərin artırılması və nağd ödənişlərin məhdudlaşdırılması tədbirləri nəticəsində bu göstəricinin əhəmiyyətli şəkildə azaldılması və inkişaf etmiş ölkələrin göstəricilərinə yaxınlaşması gözlənilir.

Həyata keçirilən genişmiqyaslı tədbirlər belə deməyə əsas verir ki, yaxın gələcəkdə ölkə əhalisi nağdsız hesablaşmalardan daha geniş şəkildə istifadə edəcəkdir.

**Aygün ƏLİYEVA,**
***«AzərTAc»***

# Elektron ödəniş xidmətləri ilə bağlı yeni konsepsiya

*Mərkəzi Bank (MB) «Ödəniş xidmətləri haqqında» qanun layihəsi üzərində işləri yekunlaşdırıb. Layihədə Azərbaycanda ödəniş sistemləri sahəsində hüquqi bazanın beynəlxalq standartlara uyğunlaşdırılması, ödəniş xidmətləri üzrə hüquq və öhdəliklər, ödəniş və elektron pul təşkilatlarının yaradılması və fəaliyyətlərinin iqtisadi, hüquqi və təşkilati əsasları, habelə bu sahədə nəzarətin həyata keçirilməsi qaydaları ilə bağlı məsələlər öz əksini tapıb.*

Sənədə əsasən, Mərkəzi Bank ölkədə ödəniş sistemlərinin fəaliyyətini təşkil etmək və tənzimləməklə bu sektorda nəzarət tədbirlərini həyata keçirir. MB, eyni zamanda, öz səlahiyyətləri çərçivəsində ödəniş sistemləri sahəsində strateji inkişaf istiqamətlərini müəyyənləşdirir, islahatların təşəbbüskarı və koordinatoru rolunda çıxış edir. Bu istiqamətdə islahatları davam etdirən MB beynəlxalq maliyyə institutları, inkişaf etmiş Avropa ölkələrinin mərkəzi bankları, o cümlədən MDB dövlətlərinin mərkəzi bankları ilə ödəniş sistemlərinin öyrənilməsi və inkişafı sahəsində əməkdaşlığı genişləndirməyi qarşıya məqsəd qoyub. Eyni zamanda, ölkədə informasiya texnologiyalarının inkişafı və informasiyalı cəmiyyətin yaradılması prosesinin geniş vüsət alması e-ödənişlərlə bağlı qanunvericiliyin təkmilləşdirilməsini də zəruri edir. Aparılan təhlillərə görə, e-ödənişlərin həcminin ilbəil artmasına baxmayaraq, ödəniş sistemləri sahəsində bir sıra zəruri tədbirlərin həyata keçirilməsinə, mövcud infrastrukturdan və potensialdan daha geniş şəkildə istifadə olunmasına ehtiyac var. Xüsusilə də bölgələrdə elektron xidmətlərdən istifadə imkanlarının yaradılması, bu istiqamətdə təşviqedici addımların atılması olduqca vacibdir. Hökumət e-xidmətlərin çeşidini genişləndirərək ödəniş sistemlərinin səmərəliliyini də yüksəltməyi müvafiq qurumlar qarşısında vacib məsələ kimi qoyub.

Məhz bu məqsədlə yeni qanunda elektron ödəniş xidmətlərinin institusional və hüquqi bazasının daha da gücləndirilməsi, banklar tərəfindən nağdsız hesablaşmalar üzrə təqdim olunan xidmətlərin çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi kimi amillərə xüsusi yer verilib. Bundan başqa, qiymətli kağızlar üzrə hesablaşma sisteminin ödəniş sistemləri infrastrukturuna inteqrasiyasının təmin olunması, hesablaşmaların həyata keçirilməsində müasir texnologiyalara əsaslanan ödəniş mexanizmlərindən istifadə edilməsi ödəniş alətlərinin istifadəsi üzrə stimullaşdırıcı proqramların reallaşmasında nəzərdə tutulan əsas tədbirlərdəndir. Tədbirlərə banklar tərəfindən göstərilən elektron xidmətlərin çeşidinin artırılması, bank-müştəri münasibətlərinin elektronlaşması, kart infrastrukturunun genişləndirilməsi də aiddir. Eləcə də ticarət-iaşə və xidmət sahələrində POS-terminalların quraşdırılmasının kütləviləşdirilməsi və «Azərpoçt» MMC-nin bütün xidmət şəbəkəsinin maliyyə xidmətləri göstərməsi və təşkilatın kart infrastrukturuna inteqrasiya olunması, regionlarda, xüsusilə kənd yerlərində elektron ödəniş xidmətlərinə çıxış imkanlarının yaradılması nəzərdə tutulur.

MB, eyni zamanda, ödəniş sistemləri sahəsində nəzarət tədbirlərini də gücləndirmək niyyətindədir. Bu məqsədlə qanun layihəsində digər dövlətlərin müvafiq nəzarət orqanları ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində ödəniş və elektron pul təşkilatlarının xarici ölkədəki filialında yoxlamaların həyata keçirilməsinə dair detallar yer alıb. Bununla yanaşı, sənəddə ödəniş alətinin təhlükəsizliyinin təmin olunması, o cümlədən dələduzluq məqsədilə və ya səlahiyyətli olmayan şəxs tərəfindən istifadəsinin qarşısının alınması və digər məsələlər də öz əksini tapıb. Burada əsas məqsəd ödəniş xidməti istifadəçilərinin hüquqlarının qorunması və ödəniş sistemlərinin təhlükəsiz və effektiv fəaliyyətinin təmin edilməsidir.



Onu da qeyd edək ki, sözügedən qanun layihəsi ilə yanaşı, MB tərəfindən respublikada nağdsız dövriyyənin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması, habelə ödəniş xidmətlərinin institusional və hüquqi bazasının daha da genişləndirilməsi məqsədilə «Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərindən istifadənin genişləndirilməsi üzrə 2013-2017-ci illər üçün Dövlət Proqramı» da hazırlanıb. Dövlət Proqramında müasir elektron ödəniş alətləri və bank texnologiyalarından istifadənin genişləndirilməsi, elektron ticarətin inkişafının sürətləndirilməsi, nağdsız dövriyyənin xüsusi çəkisinin artırılması, ödəniş sistemləri və hesablaşmalar sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və digər mühüm tədbirlər nəzərdə tutulub. Ümumiyyətlə, elektron ödəniş xidmətləri ilə bağlı strategiyanın əsas hədəfləri nağdsız ödəniş alətlərindən istifadənin genişləndirilməsi nəticəsində yüksək ödəniş mədəniyyətinə malik cəmiyyətin formalaşdırılması və nağdsız dövriyyənin inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılmasından ibarətdir. Beləliklə, elektron ödəniş sistemləri ilə bağlı hər iki sənədin başlıca istiqaməti ölkədə fəaliyyət göstərən bütün təsərrüfat subyektlərinin ödəniş sistemlərinin xidmətlərindən aktiv istifadəsini təmin etmək, dövriyyədə olan nağd pul kütləsinin həcmini azaltmaqdır. Bu mənada, yeni qanun ölkəmizdə nağdsız hesablaşmalar bazarının inkişaf etdirilməsi üçün güclü zəmin yaradacaq.

**ELBRUS**

# Qeyri-neft məhsullarının ixracına dair strateji plan

*Azərbaycan hökuməti qarşıdakı inkişaf mərhələsində ixracın strukturunda əhəmiyyətli dəyişiklik etməyi və qeyri-neft məhsullarının ixracının artırılmasını əsas hədəflərdən biri kimi qarşıya məqsəd qoyub.*

Hazırda milli iqtisadiyyatın inkişafında qeyri-neft sektorunun rolunun artması və ortamüddətli dövrdə iqtisadiyyatın ağırlıq mərkəzinin bu sahənin üzərinə düşməsi qeyd olunan hədəflərə çatmağa nikbinlik yaradır. İqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənovanın sözlərinə görə, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında neftdənkənar sahələrin yüksək inkişafının və qeyri-neft məhsullarının ixracının təmin edilməsi ilə bağlı konkret istiqamətlər müəyyən olunub. İqtisadi İnkişaf Nazirliyi (İİN) qarşıdakı illərdə qeyri-neft məhsullarının ixracının və milli sahibkarlığın xarici bazarlara çıxışının genişləndirilməsinə dair yeni layihələr üzərində işləri yekunlaşdırmaqdadır. Layihələrdə bu sahənin inkişaf etdirilməsi ilə bağlı bir sıra təkliflər yer alıb. Əsas prinsiplər yerli biznesmenlərin Avropa bazarlarına çıxışına geniş meydan verən iqtisadi vasitələrin tətbiqidir. Bu məqsədlə qeyri-neft sektorunun diversifikasiyası, Avropada yeni bazarların qazanılması üçün ixracının stimullaşdırılması və güzəştlərin tətbiq olunması nəzərdə tutulur.

Azərbaycan indiyə kimi görülmüş tədbirlər sayəsində rəqabətədavamlı qeyri-neft məhsullarına malik iri müəssisələrin yaradılmasına, eyni zamanda ixracın infrastruktur təminatının yaxşılaşdırılmasına nail olub. Sənaye zonalarının yaradılması bu istiqamətdə ən uğurlu layihələrdən hesab olunur. Buna görə də dövlət sənaye texnoparklar şəbəkəsini genişləndirməyi, regionlarda yeni texnoparklar yaratmağı, eyni zamanda azad sənaye zonaları layihəsini həyata keçirməyi perspektiv planlara daxil edib. Yeri gəlmişkən, Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında ticarət əməkdaşlığına əsasən, respublikamızdan Aİ ölkələrinə istənilən məhsulları kvotasız satmağa imkan verən «GSP plus» sistemi qüvvədədir. Bu sistem ixracda müəyyən güzəştləri nəzərdə tutur. Hazırda Azərbaycan iqtisadiyyatının inkişafı və respublikamızın orta gəlirli inkişaf etmiş ölkələr sırasına daxil olması tamamilə yeni meyarları meydana çıxarıb və ixracla bağlı güzəştsiz sistem tətbiq olunacaq. Ölkəmiz Avropa bazarlarında yer tutmaq üçün daha keyfiyyətli, rəqabətədavamlı qeyri-neft məhsulları istehsal etməlidir.

Məhz bu məqsədlə sənayeləşmənin inkişafı, iri müəssisələrin sayının artırılması, orta və kiçik müəssisələrin ixraca davamlılığının gücləndirilməsi başlıca məqsədlərdəndir. Bu siyasətin əsas istiqamətlərindən biri ixracın stimullaşdırılmasıdır. Stimullaşdırma tədbirlərinə müəssisələrdə müasir standartlara uyğun şəraitin yaradılması və istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkili məqsədilə sahibkarlıq subyektlərinin dəstəklənməsi və digər vasitələr daxildir. Bununla bağlı ixrac məqsədli məhsulların istehsalının kreditləşdirilməsi və maliyyələşdirilməsi, məhsul və xidmətlərin ixracının sığortalanması mexanizminin təkmilləşdirilməsi üzrə layihə hazırlanır.









Dövlət stimullaşdırma tədbirləri ilə yanaşı, qeyri-neft sektorunda ixracın artırılması üçün güzəşt mexanizmini də tətbiq etmək niyyətindədir. Güzəştlərdən biri yerli sahibkarların Avropa bazarlarına çıxışını asanlaşdırmaq üçün gömrük rejiminin yumşaldılmasından ibarətdir. Gömrük qanunvericiliyinin təkmilləşdirilməsi, ixrac prosedurlarının sadələşdirilməsi məqsədi ilə müvafiq normativ hüquqi aktlara əlavə və dəyişikliklərin edilməsi əsas tədbirlərdən hesab olunur. Bundan başqa, xarici ticarət fəaliyyəti sahəsində daha əlverişli şəraitin təmin edilməsi və bu sahədə dövlət tənzimlənməsinin təkmilləşdirilməsi məqsədi ilə qanunvericilikdə dəyişikliklərin edilməsi nəzərdə tutulur.

İİN ixracyönümlü, Azərbaycan mənşəli məhsul və xidmətlərin xarici bazarlarda təşviqi məqsədi ilə müvafiq beynəlxalq tədbirlərdə ölkə ixracatçılarının iştirakının təmin edilməsi və ixrac üçün potensial və perspektivli sayılan dövlətlərdə müvafiq sərgilərin, forumların təşkili və digər təşviqat tədbirlərini gücləndirməyi də əsas prioritetlərdən hesab edir. Bu məqsədlə hazırlanmış strateji plana əsasən, qeyri-neft məhsullarını ixrac edən sahibkarlıq subyektləri və onların istehsal etdiyi məhsullar, mövcud və potensial xarici bazarlardakı vəziyyət, eləcə də həmin bazarlara giriş üçün müəyyən edilmiş tələblər barədə məlumatlandırma sisteminin yaradılması, ixrac fəaliyyətinin genişləndirilməsi və müəssisələrdə keyfiyyətin idarə olunması sahələri üzrə sahibkarların maarifləndirilməsi, həmçinin ixrac müəssisələrinin kadr potensialının yüksəldilməsi məqsədi ilə təhsil-treninq proqramlarının təşkili ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

İİN indiyə qədər Avropa ölkələrinin nüfuzlu biznes və hökumət nümayəndələrinin iştirakı ilə 70-dən artıq biznes-forum və başqa tədbirlər keçirib. Bu tədbirlər Azərbaycanın milli istehsal gücü, yerli sahibkarların potensialı haqqında xarici investorlarda geniş məlumatın yaranması və onların azərbaycanlı iş adamları ilə birgə əməkdaşlığa başlaması üçün əlverişli zəmin deməkdir. Nəticədə ölkənin tanınmış iri şirkətlərinin Avropa bazarlarına qeyri-neft məhsullarının ixracına geniş stimul verir. Bu günlərdə Bakıda keçirilən I Avropa-Azərbaycan investisiya konfransı da xarici biznesmenlərdə ölkəmizin istehsal və ixrac imkanları barədə geniş təəssüratın yaranmasında olduqca böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, konfransda Azərbaycan və Avropa şirkətləri arasında əməkdaşlıq imkanları və perspektivləri, kiçik və orta müəssisələrin Avropa bazarlarına ixrac imkanları, yeni rəqabətədavamlı qeyri-neft məhsullarının istehsalı müəssisələrinin yaradılması üçün investisiya qoyuluşu imkanları müzakirə edilib.

Ən mühüm tədbirlərdən biri potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılmasıdır. Ticarət evlərində ölkəmizin məhsulları nümayiş olunacaq, eyni zamanda həmin məhsulların satışı həyata keçiriləcək.

**E.CƏFƏRLİ**

# Sığorta-pensiya sistemi inkişaf edir



*Respublikamızda əmək pensiyaları ödənilmiş məcburi sosial sığorta haqlarına əsasən təyin olunur ki, bu da pensiya məbləğini sosial sığorta haqlarının vaxtında ödənilməsindən birbaşa asılı edir.*

Hazırda məcburi dövlət sosial sığorta haqları üzrə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin əsas hissəsi işəgötürənlər tərəfindən təmin edilir. Bütün işəgötürənlər hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərin 22 faizi, işçilər isə hesablanmış əməkhaqqının 3 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

**Əmək pensiyaları fərdi hesaba toplanan pensiya kapitalına əsasən aparılır**

Ödənilmiş sosial sığorta haqlarının fərdi uçotunun aparılması məqsədilə Dövlət Sosial Müdafiə Fondu hər bir sığortaolunanı fərdi uçot sistemində uçota alaraq, onun üçün unikal sosial sığorta nömrəsi olan fərdi şəxsi hesab açır. Həmin hesabda sığortaolunanların gələcək pensiya təyinatı hüququnun reallaşdırılması üçün tələb olunan mühüm məlumatlar toplanır. Sığortaolunanın DSMF-də uçota alındığını və onun üçün fərdi şəxsi hesabın açıldığını təsdiqləyən hüquqi sənəd olan sosial sığorta şəhadətnaməsi rəsmiləşdirilir. Bildirək ki, əmək pensiyalarının fərdi hesaba toplanan pensiya kapitalına əsasən aparılması 2006-cı il yanvarın 1-də tətbiq olunan «Əmək pensiyaları haqqında» Qanuna əsasən həyata keçirilir. Ölkə vətəndaşları ilə yanaşı, respublika ərazisində əmək fəaliyyəti ilə məşğul olub gəlir əldə edən əcnəbi vətəndaşlar da məcburi dövlət sosial sığorta haqlarının ödəyiciləri hesab edilir. Həmin vətəndaşların DSMF-də uçotu, fərdi şəxsi hesabının açılması və sosial sığorta şəhadətnaməsinin verilməsi qaydaları ölkə vətəndaşları üçün tətbiq olunan qaydalarla eynidir.

Fondun internet səhifəsində yaradılmış müştəri xidmətləri sisteminə istənilən vətəndaş daxil olaraq öz fərdi hesabı barədə məlumat ala, eləcə də pensiya kalkulyatoru vasitəsilə öz pensiyasını hesablamaq imkanına malikdir.

**İki ay ərzində avtomatlaşdırılmış qaydada 356 nəfərə pensiya təyin edilib**

Cari ilin iyul ayının 11-dən etibarən pensiya yaşına çatmış hər bir vətəndaşa yaşa görə əmək pensiyasının təyini sadələşdirilib. Yaşa görə əmək pensiyalarının avtomatlaşdırılmış qaydada vahid mərkəzdən aparılması pensiya yaşına çatmış vətəndaşlar üçün arzuolunan bir xidmətə çevrilib. DSMF-dən aldığımız məlumata görə, sistemin tətbiq olunduğu 2 ay ərzində 356 nəfərə avtomatlaşdırılmış qaydada pensiya təyin olunub. Təyinat aparılan şəxslərin 135 nəfəri Bakı şəhərində, 221 nəfəri isə bölgələrdə yaşayan vətəndaşlardır. Əmək pensiyası təyinatı aparılan hər vətəndaşa bir neçə dəqiqə ərzində ona təyin olunan pensiyanın məbləği və öz plastik pensiya kartını ala biləcəyi müvəkkil bankın filialının ünvanı bildirilib. Eyni zamanda, hər bir vətəndaşa bununla bağlı xüsusi rəsmi bildiriş göndərilib.

Şərqi Avropa və MDB məkanında ilk dəfə olaraq Azərbaycanda tətbiq olunan bu sistem pensiya yaşına çatmış hər bir vətəndaşa hər hansı sənəd toplamadan və vaxt itirmədən «190-0 Çağrı Mərkəzi»nə zəng vurub real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdırmaq imkanı verir. Bu islahat tədbiri sistemdə şəffaflığın daha da artmasına, əlavə vaxt itkisinin qarşısının alınmasına, vətəndaşlarla Fondun əməkdaşları arasında münasibətlərin sadələşdirilməsinə, insan amilinin xeyli azaldılmasına şərait yaradır.

Azərbaycanda avtomatlaşdırılmış pensiya təyinatı ölkə Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq etdiyi «2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq həyata keçirilir. Hazırda avtomatlaşdırılmış pensiya təyinatı ilkin olaraq yaşa görə əmək pensiyası növü üzrə aparılmaqdadır. DSMF-dən qəzetimizə verilən məlumata görə, əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyalarının təyinatının avtomatlaşdırılmış qaydada aparılması digər müvafiq dövlət qurumlarında qeyd olunan təyinatlarla bağlı zəruri informasiyaları özündə əks etdirən elektron xidmətlərin yaradılmasından sonra həyata keçiriləcəkdir.

Bildirək ki, «Əmək pensiyaları haqqında» Qanunun qüvvəyə mindiyi gündək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla, ölkədə 62 yaşına çatmış kişilərin və 57 yaşına çatmış qadınların azı 12 il sığorta stajı olduqda yaşa görə əmək pensiyası almaq hüququ vardır. Qeyd edək ki, qanunvericiliyə görə, kişilərin yaş həddi 2010-cu il yanvarın 1-dən başlayaraq 2012-ci il yanvarın 1-dək, qadınların yaş həddi 2010-cu il yanvarın 1-dən başlayaraq 2016-cı il yanvarın 1-dək hər il altı ay artırılır.

**AYTƏN**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Mühasibat və vergi uçotunun fərqli xüsusiyyətləri

## *Müvəqqəti və daimi fərqlər*

**Əvvəli ötən sayımızda**

Hörmətli oxucular, qəzetin əvvəlki saylarında qeyd edildi ki, mühasibat uçotu ilə vergi uçotu arasında müvəqqəti fərqlər hər bir uçotda gəlir və ya xərc maddələrinin müxtəlif hesabat dövrlərində tanınmasını tələb edən fərqli qaydalardan istifadə edildiyinə görə meydana gəlir. Fərq ona görə müvəqqəti adlanır ki, bir hesabat dövründə yaranan fərq vaxt keçdikcə növbəti hesabat dövrlərində aradan qalxacaqdır.

Aşağıda göstərilən izahlar müvəqqəti fərqlər haqqında ilkin bilgilərin əldə edilməsi məqsədi daşıyır və ona görə də göstərilən misallar sadə xarakterizə olunub. Müvəqqəti fərqlərlə bağlı misallar üzərində izahlarımızı davam etdirək:

***Gəlirlər üzrə misal 1.***

Müəssisənin həm mühasibat uçotunda, həm də vergi uçotunda ofis binasının 2012-ci ilin əvvəlinə qalıq (balans) dəyəri 40000 manatdır. 2012-ci ildə həmin bina yenidən qiymətləndirilmiş və qalıq dəyəri 10000 manat artırılaraq 50000 manata çatdırılmışdır. 2012-ci il üçün binaya amortizasiya xərci hesablanmayıb. Növbəti 2013-cü ildə bina 50000 manata satılmışdır.

Belə olan halda, mühasibat standartının tələbinə görə mühasibat uçotu üzrə 2012-ci ilin maliyyə hesabatında 10000 manat artım göstərilməlidir (tanınmalıdır). Vergi uçotunda isə həmin il üçün təqdim olunan mənfəət vergisinin bəyannaməsində mənfəət hesablanan gəlirə aid edilməyəcəkdir (VM, maddə 104.5, 143). Deməli, 2012-ci ildə uçot mənfəəti vergi mənfəətindən 10000 manat çox olacaqdır.

2013-cü ildə isə bina satıldığına görə vergi uçotunda 50000 manat məbləğ gəlirlərə və 40000 manat məbləğ xərclərə aid edilməklə vergi mənfəətinə 10000 manat əlavə ediləcəkdir. Mühasibat uçotunda isə 50000 manat gəlirlərə və o qədər məbləğ xərclərə aid edilməklə uçot mənfəətinə maliyyə təsiri sıfıra (binanın satışından 50000 manat gəlir çıxılsın binanın 50000 manat qalıq dəyəri) bərabər olacaqdır. 2013-cü ildə mühasibat uçotunda binanın satışı ilə bağlı xərcin (qalıq dəyərin) 50000 manat nəzərdə tutulması əvvəlki hesabat ilində binanın qalıq dəyərinin 10000 manat artırılması ilə əlaqədardır.

Göründüyü kimi, 2012-ci ildə uçot mənfəəti vergi mənfəətinə nisbətən 10000 manat çox göstərilməsinə baxmayaraq, növbəti 2013-cü hesabat ilində 10000 manat az göstərilib və bununla da fərqin müvəqqəti xarakter daşıdığı aydın olur.

***Gəlirlər üzrə misal 2.***

Müəssisə hesabat ilində 100000 manat dəyərində mal satışı etmişdir. Satılmış mallara görə alıcılardan 80000 manat daxil olmuşdur. Hesablanmış xərclər (satışın maya dəyəri) 70000 manatdır və bütün xərclərin əvəzi ödənilmişdir. Müəssisənin vergi uçotunda gəlir və xərclərin uçotu kassa metodu ilə aparılır. Belə halda, mühasibat uçotunda mənfəət və zərərlər haqqında hesabatda uçot mənfəəti yalnız hesablama metodunun tətbiqinin məcburiliyini nəzərə alaraq 30000 (100000 - 70000) manat olmasına baxmayaraq, mənfəət vergisinin bəyannaməsində vergi tutulan mənfəətin məbləği kassa metodunun tətbiqinin seçildiyinə görə 10000 (80000 - 70000) manat hesablanacaqdır. Beləliklə də mənfəətlər arasında 20000 (30000 - 10000) manat fərq yaranacaqdır.

Vergi Məcəlləsinin aşağıda göstərilən maddələrinin tələbləri nəticəsində uçot mənfəəti ilə vergi tutulan mənfəəti arasında müvəqqəti fərqlər yarana bilər (*bax: Cədvəl 1*).

*Cədvəl 1*

| Müvəqqəti fərqləri yaradan hallar üzrə müqayisə | | |
|---|---|---|
| **Mühasibat uçotunda** | **Vergi uçotunda** | |
| Müxtəlif amortizasiya hesablamalarının tətbiqi nəticəsində müxtəlif amortizasiya xərclərinin yaranması | Maddə 114 | Amortizasiyanın yalnız bir metodunun tətbiqi nəticəsində amortizasiya xərclərinin yaranması |
| Aktivin yenidən qiymətləndirilməsi nəticəsində dəyərin artması və ya azalması | Maddə 143, 104.5 | Aktivlərin dəyərinə yenidən qiymətləndirilmədən yaranan artımın daxil edilməməsi və ya mənfəət vergisinin vergitutma obyektinə aid edilməməsi |
| Bəzi xərclərin kapitallaşdırılması tələbinin olması | Maddə 113 | Məsələn, elmi-tədqiqat, layihə-axtarış və təcrübə konstruktor işlərinə çəkilən xərclərin kapitallaşdırılmayaraq vergi tutulan xərclərə aid edilməsi |
| Gəlirin və xərcin uçotu zamanı yalnız hesablama metodun tətbiq olunması tələbi | Maddə 130 | Gəlirin və xərcin uçotu zamanı həm hesablama, həm də kassa metodunun tətbiq olunması |

**Ardı növbəti sayımızda**

# Gəliri olmayan müəssisənin cari məcburi xərclərinin təsisçilər tərəfindən ödənilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

Məsələn, hüquqi şəxslə onun təsisçisi arasında tövsiyə olunan iki cür hüquqi müqavilə bağlamaq olar:

1. Pulun borc verilməsi haqqında borc müqaviləsi;

2. Pulun əvəzsiz verilməsi haqqında əvəzsiz müqavilə.

Təsisçi tərəfindən pulun borc verilməsi ilə bağlı aşağıdakılara əməl olunması tövsiyə olunur:

- Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müddəalarına uyğun olaraq təsisçi (borc verən) ilə müəssisə (borc alan) arasında borc müqaviləsi bağlanılır. Borcun faizsiz qaytarılmasının nəzərdə tutulması məsləhət görülür.

- Təsisçi fiziki şəxsdən və ya hüquqi şəxsdən (hüquqi şəxsin nümayəndəsindən) borc alınan pulun müəssisənin kassasına nağd daxil edilməsi üçün müəssisə tərəfindən kassa-mədaxil orderi tərtib olunur. Orderdə ödənişə əsas kimi «borc pulun alınması» göstərilməlidir. Orderdə əsas kimi «müvəqqəti maliyyə yardımı», «təsisçi vəsaiti» və ya digər formada qeyri-dəqiq əsasların göstərilməsi əməliyyatın məzmununu təhrif edə bilər. Pul birbaşa təsisçi tərəfindən müəssisənin bank hesabına ödənildiyi halda da bank qəbzində ödənişə əsas kimi pulun borc alınması göstərilməlidir.

Təsisçi tərəfindən pulun əvəzsiz olaraq verilməsi ilə bağlı aşağıdakılara əməl olunması tövsiyə edilir:

- Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müddəalarına uyğun olaraq təsisçi (yardım verən) ilə müəssisə (yardım alan) arasında əvəzsiz müqavilə bağlanılır.
- Təsisçi fiziki şəxsin və ya hüquqi şəxsin (hüquqi şəxsin nümayəndəsinin) əvəzsiz verdiyi pulun müəssisənin kassasına nağd şəkildə daxil olması üçün müəssisə tərəfindən kassa-mədaxil orderi tərtib olunur. Orderdə ödənişə əsas kimi «əvəzsiz olaraq pulun alınması» və ya «əvəzsiz maliyyə yardımının alınması» göstərilməlidir. Pul birbaşa təsisçi tərəfindən müəssisənin bank hesabına ödənildiyi halda da bank qəbzində ödənişə əsas kimi pulun əvəzsiz verilməsi göstərilməlidir.

Təsisçidən alınan borc məbləğlərinin və qaytarmaların uçotunun aparılmasında müxtəlif yanaşmalar vardır. Bəzi mühasiblər bu məbləğləri təsisçilərlə aparılan 75№-li Itəsisçilərlə hesablaşma» hesabında və ya yeni hesablar planı üzrə 534№-li «gəlirlərin ödənilməsi üzrə təsisçilərə kreditor borclar» hesabında aparırlar. Təsisçi fiziki şəxsdən və ya təsisçi hüquqi şəxsdən pulun borc alınması bir təsərrüfat əməliyyatıdır və təsisçi bu əməliyyatlarda borc verən kimi çıxış edir. Məsələn, təsisçi fiziki şəxsdən borc alınması əməliyyatını «təsisçidən alınan borc» kimi deyil, «fiziki şəxsdən alınan borc» kimi adlandırmaq daha düzgündür. Çünki o cümlədən, təsisçi adlandırdığımız fiziki şəxs bu əməliyyatlarda borc verəndir, təsisçi anlamında deyildir. Borcun alınması və qaytarılması ilə bağlı əməliyyatların uçotu 75№-li və ya 534№-li hesabda nəzərdə tutulmayıb. Bunun üçün digər, məsələn, 94, 95 №-li və ya 404, 504№-li hesablardan istifadə edilməsi informasiyanın düzgün verilməsini təmin edə bilər.

Təsisçidən alınan yardım məbləğlərinin də uçotunun təsisçilərlə aparılan hesablaşma hesabında (75№-li və ya 534№-li hesablarda) aparılması əməliyyatın xarakterinə uyğun gəlmir. Pulun əvəzsiz alınması əməliyyatında təsisçi fiziki şəxs və ya hüquqi şəxs yardım verən kimi çıxış edir. Məsələn, təsisçi fiziki şəxsdən yardım alınması əməliyyatını «təsisçidən alınan yardım» kimi deyil, «fiziki şəxsdən alınan yardım» kimi adlandırmaq daha düzgündür. Çünki təsisçi adlandırdığımız fiziki şəxs bu əməliyyatlarda yardım verəndir. Yardımın alınması ilə bağlı əməliyyatların uçotu 75№-li və ya 534№-li hesabda nəzərdə tutulmayıb. Bunun üçün də digər, məsələn, 80, 87 №-li və ya 611№-li hesablardan istifadə edilməsi informasiyanın düzgün verilməsini təmin edə bilər.

Vəsaitlərin borc şəklində daxil olması hər hansı vergitutma obyekti yaratmır. Lakin borcların müqavilə üzrə qaytarılmasının təmin edilməsindəki çatışmazlıqlar yoxlama orqanları tərəfindən vergidən yayınma məqsədinin olmasını əsaslandıran bir hal kimi qiymətləndirilə bilər. Məsələn, müqavilə öhdəliyini pozmaqla uzun müddət borcun qaytarılmaması və ya heç qaytarılmaması və buna qarşı borc verən fiziki şəxs (təsisçi) tərəfindən hər hansı iddianın olmaması dolayısı ilə pulun əvəzinin istənilməməsi anlamına gəlir və bununla da rəsmiyyətdə borc verilən pulun əvəzsiz olaraq verilməsi niyyətini ortaya çıxarır.

Vəsaitlərin yardım şəklində daxil olması isə yardımı alan vergi ödəyicisinin vergi mükəlləfiyyətindən asılı olaraq vergitutma obyekti yaradır. Alınmış yardımlar ƏDV-yə cəlb olunmur, lakin satışdankənar gəlirlər kimi sadələşdirilmiş və ya mənfəət vergisinə cəlb olunur.

**Davamı növbəti sayımızda**

bir maktubun izi ila

# Qərar ləğv edildi

*Vergilər Nazirliyinə daxil olmuş müraciətlərin təhlili göstərir ki, vergi qanunvericiliyinin pozulmasına rəvac verən halların böyük əksəriyyəti vergi ödəyicilərinin vergi öhdəliklərini yerinə yetirməməsi nəticəsində yaranır. Lakin bəzi hallarda vergi orqanları əməkdaşlarının qanunvericiliyin tətbiqi zamanı müəyyən prosedur qaydalarını pozması faktlarına da təsadüf olunur...*

«Memar-AS» Məhdud Məsuliyyətli Cəmiyyəti 11 iyul 2013-cü il tarixli müraciətində 13 saylı Ərazi Vergilər İdarəsinin şirkətə 2012-ci ilin yekunlarına əsasən mənfəət vergisi üzrə kameral qaydada hesabladığı 6824,58 manat əlavə vergi məbləğinin ləğvini xahiş etmişdir. 2012-ci ildə heç bir müqavilə bağlamadığını bildirən şirkət rəhbərliyi vergilərin hesablanması barədə qərarda maliyyə sanksiyasının səbəblərinin göstərilmədiyini də qeyd etmişdir.

Aparılmış araşdırma zamanı məlum olub ki, 2012-ci il üzrə mənfəət vergisi bəyannaməsinin 1 saylı əlavəsi düzgün tərtib edilmədiyi üçün vergi ödəyicisinə 5 aprel 2013-cü il tarixdə uyğunsuzluq məktubu göndərilib. «Xalq bank»ın Zaqatala filialından alınmış məlumatlar əsasında müəyyən olunub ki, 2012-ci il ərzində vergi ödəyicisinin bank hesabına 52.510 manat vəsait daxil olub. Vergi ödəyicisinin 1 aprel 2013-cu il tarixdə vergi orqanına təqdim etdiyi mənfəət vergisi bəyannaməsinin 1 saylı əlavəsində də bu fakt əksini tapıb. Nəticədə mənfəət vergisi bəyannaməsi üzrə yaranmış 52.510 manat kənarlaşma iş və xidmətlərin təqdim edilməsi üzrə gəlirlər sətrinə əlavə olunmaqla, vergi ödəyicisinə 824,58 manat kameral qaydada mənfəət vergisi hesablanıb.

Araşdırma zamanı o da müəyyən olunub ki, bank hesabı ilə bağlı yaranmış kənarlaşma üzrə vergi ödəyicisinə uyğunsuzluq məktubu göndərilməyib. Eyni zamanda, kameral hesablama aparılarkən bank hesabına daxil olmuş pul vəsaiti ƏDV nəzərə alınmadan gəlirə daxil edilib və ƏDV üzrə hesablama aparılmayıb.

Müraciətin obyektiv araşdırılması məqsədilə 7 iyul 2013-cü il tarixdə vergi ödəyicisi nazirliyə dəvət olunub. «Memar-AS» Məhdud Məsuliyyətli Cəmiyyətinin səlahiyyətli nümayəndəsi isə səbəb göstərmədən müraciətin birgə araşdırılması üçün görüşə gəlməyib. Buna baxmayaraq, Vergi Məcəlləsinin 36.2-ci maddəsi əsasında belə nəticəyə gəlinib ki, inzibati şikayət təmin edilməlidir. Həmin müddəaya əsasən, vergi yoxlamaları keçirildikdə vergi orqanları və onların vəzifəli şəxsləri düzgün qərar qəbul etmək məqsədilə əhəmiyyətli olan bütün halları, o cümlədən vergi ödəyicisi üçün əlverişli olan halları aydınlaşdırmalıdırlar.

Araşdırmalar zamanı vergi ödəyicisində müəyyən edilmiş uyğunsuzluqlar barədə vergi orqanında kifayət qədər məlumatın olmadığı üzə çıxıb. Üstəlik, qeyd edilənlər üzrə müvafiq təsdiqedici sənədlər də təqdim olunmadığından, vergi ödəyicisində səyyar vergi yoxlamasının keçirilməsi məqsədəmüvafiq hesab edilib.

Nəticədə «Memar-AS» Məhdud Məsuliyyətli Cəmiyyətinin 2012-ci ilin mənfəət vergisi üzrə kameral qaydada hesablanmış əlavə vergi məbləğinin ləğv olunması barədə 11 iyul 2013-cü il tarixli inzibati şikayəti təmin edilib; vergilərin hesablanması barədə qərar etibarsız hesab olunub. Qərarda 13 saylı Ərazi Vergilər İdarəsinə «Memar-AS» Məhdud Məsuliyyətli Cəmiyyətində Vergi Məcəlləsinin 38-ci maddəsi əsasında səyyar vergi yoxlamasının aparılmasını təmin etmək tapşırılıb.

**S.MUSTAFAYEV**




vergi təqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 30 | 27 | 28 | 29 | 30 | 28 | 29 |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

20 sentyabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməlidirlər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin yanvar-avqust aylarında elektron pərakəndə ticarət dövriyyəsinin həcmi 2012-ci ilin eyni dövrünə nisbətən **1,7 dəfə** artaraq **1,6 milyon** manat təşkil etmişdir.
- Azərbaycanda sənaye sahəsində 2013-cü ilin yanvar-avqust aylarında **22,5 milyard** manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir.
- Cari ilin yanvar-avqust aylarında Azərbaycanda ötən ilin müvafiq dövrü ilə müqayisədə **5,2%**, yaxud **1,9 milyard** manat çox əlavə dəyər istehsal olunmuş və onun ümumi həcmi **37,4 milyard** manata çatmışdır.
- İstehlakçıların təbii qazla fasiləsiz təchiz edilməsi istiqamətində görülən işlərin nəticəsində sentyabrın 1-dək ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı **1 milyon 569 min 860-a** çatmışdır.

beynəlxalq panoram

# Qırğızıstanda Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilib

*Qırğızıstan parlamenti birinci oxunuşda «Qırğızıstan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında» qanun layihəsinə baxıb. Qanun layihəsi vergi inzibatçılığının yaxşılaşdırılması məqsədilə hazırlanıb.*



Qanunvericiliyə əsas dəyişikliklər sırasında mənfəət, gəlir, faiz və daşınmaz əmlaka vergilər üzrə hesabatların təqdim edilməsi və vergilərin ödənilməsi müddətlərinin dəyişdirilməsi nəzərdə tutulur. Dəyişikliklərə əsasən, ƏDV üzrə əvəzləşmələr yalnız o halda aparılacaq ki, əldə edilmiş malların haqqı nağdsız formada ödənilsin və ya hesabat dövründə nağd alışların həcmi 300 min somu (100 som = 2 USD) ötməsin.

Dəyişikliklər layihəsini müzakirə edən parlamentin müvafiq komitəsi öz rəyində qeyd edib ki, ƏDV üzrə əvəzləşmələrdə yalnız nağdsız formada ödənişlərə dair normanın tətbiqi sahibkarların, xüsusilə də regionlarda işləyən fərdi sahibkarların vəziyyətini əhəmiyyətli dərəcədə çətinləşdirəcək.

Hökumət, həmçinin, sanatoriyalar, pansionatlar və istirahət evləri üzrə sahə əmsalını artırmağı (0,2-dən 1-ə qədər) təklif edib. Bununla yanaşı, ticarətlə məşğul olan subyektlərdə vergi postlarının qurulması ideyası irəli sürülüb. Müzakirələr zamanı parlament komitəsi bu dəyişikliklərə qarşı çıxıb.

«Sanatoriya, pansionat və istirahət evləri üzrə sahə (funksional) əmsalının 0,2-dən 1-ə qədər artımı turizm biznesinə vergi yükünü əhəmiyyətli dərəcədə artırır və nəticədə istehlakçılar üçün qiymət artımına gətirir. Bir çox sanatoriya, pansionat və istirahət evləri öz fəaliyyətini mövsümi həyata keçirdiyindən, komitə qanunvericiliyin qüvvədə olan redaksiyasında dəyişiklik aparılmasının əleyhinə çıxış edir», - komitənin qərarında bildirilir.

Qırğızıstan hökuməti həmçinin avtomobilyuma məntəqələrinin və gecə klublarının patent əsasında işləməsini təklif edib. Bu barədə iqtisadiyyat nazirinin müavini Adılbek Kasımaliyev bildirib. Patentin dəyərinin 4 min som müəyyən edilməsi təklif edilir. «Hazırda avtomobilyuma məntəqələrindən vergi yığımlarının ümumi həcmi 6,8 milyon som təşkil edir. Bişkek üçün patentin dəyəri 4 min som, regionlar üçün isə bir qədər az müəyyən ediləcək. Məsələn, ucqar rayonda bir avtomobilyuma məntəqəsi üçün dəyər 300 som təşkil edəcək, çünki belə regionda gəlirin səviyyəsi də azdır», - nazir müavini qeyd edib.

# BVF Ukraynaya vergitutma sistemini təkmilləşdirməyi tövsiyə edib

*Beynəlxalq Valyuta Fondu (BVF) hesab edir ki, Ukrayna sadələşdirilmiş vergitutma sistemini təkmilləşdirməlidir. BVF-nin fikrincə, Ukrayna hökuməti sadələşdirilmiş vergini ödəyən qrupların sayını azaltmalı və vergi dərəcələrini yüksəltməlidir.*

BVF hesab edir ki, problem sadələşdirilmiş verginin çox geniş diapazonda tətbiqindədir. Bu sistemi hətta illik dövriyyəsi 20 milyon qrivna (10 qrivna = 1,2 USD) və işçilərinin sayı 50 nəfərə çatan müəssisələr də tətbiq edə bilirlər.

Sadələşdirilmiş sistem heç də kiçik və orta müəssisələr üçün vergi dərəcələrində və ya onun inzibatçılığında hər hansı güzəştlər verilməsi anlamına gəlməməlidir. «Məsələn, sadələşdirilmiş sistemin 3-6-cı qruplarında tətbiq edilən dövriyyə vergiləri gəlirlərinin səviyyəsi təxminən eyni olmasına baxmayaraq, yüksək rentabelli biznesə nisbətən gəlirlərinin səviyyəsi aşağı olan firmalara daha çox vergi yükü yaradır», - BVF-nin hesabatında deyilir.



Ekspertlər belə qənaətdədirlər ki, digər qruplar çərçivəsində aşağı vergilərin müəyyən edilməsi vergilərin minimallaşdırması üçün stimullar yaradır. Bunu aradan qaldırmaq məqsədilə BVF ekspertləri sadələşdirilmiş sistemin 1-ci və 2-ci qrupları üçün vergi yükünü artırmağı təklif edirlər.

Xatırladaq ki, 1-ci qrupa illik dövriyyəsi 150 min qrivnadan aşağı olan və muzdlu işçilər saxlamayan müəssisələr daxildir. Onların ödədiyi vahid verginin dərəcəsi minimal əməkhaqqının 1-10% həcmindədir.

2-ci qrupa müxtəlif xidmətlərin təchizatçıları və illik dövriyyəsi 1 milyon qrivnaya qədər olan restoranlar daxildir. Belə müəssisələrin muzdlu işçilərinin sayı 10 nəfərdən azdır. Bu qrupda verginin dərəcəsi minimal əməkhaqqının (regiondan asılı olaraq) 2-20%-i qədərdir. BVF mütəxəssisləri bu qrupların vergi yükünü çox aşağı hesab edirlər.

BVF 2-ci və 3-cü qruplarda işləyə bilən müəssisələrin sayını azaltmağı tövsiyə edib. Qeyd edilməlidir ki, hazırda üçüncü qrupa illik dövriyyəsi 3 milyon qrivna və 20-dək personala malik olan fiziki şəxslər aiddir. Bu qrupda işləyən sahibkarlar ƏDV ödəyicisi olduğu halda dövriyyədən 3%, olmadıqları halda 5% vergi verirlər. BVF-nin fikrincə, 3-cü qrup çərçivəsində yalnız dövriyyəsi ƏDV ödəyiciləri üçün müəyyənləşdirilmiş həddən aşağı olan (hazırda illik 300 min qrivna) müəssisələr işləməlidir. Burada çalışan sahibkarların bir hissəsi fiziki şəxslərin gəlir vergisi və ya müəssisələrin mənfəət vergisinin ödənilməsi sisteminə keçə bilərdi ki, bununla da vergi və sosial ödəmələr bazası genişləndirilərdi.

Fond Ukrayna hökumətinə vahid vergi ödəyicilərinin 4 və 5-ci qrupunu ləğv etməyi tövsiyə edib. 4-cu qrupa illik dövriyyəsi 5 milyon qrivna və muzdlu işçilərinin sayı 50 nəfər olan hüquqi şəxslər daxildir. Bu qrupda işləyən hüquqi şəxslər ƏDV ödəyicisi olduğu halda dövriyyədən 3%, olmadıqları halda 5% vergi verirlər. 5-ci qrupa illik dövriyyəsi 20 milyon qrivna və işçi sayı 20 nəfər olan fiziki şəxslər - sahibkarlar aiddir. Onlar ƏDV ödəyicisi qeydiyyatının olub-olmamasından asılı olaraq, dövriyyədən 7-10% vergi ödəyirlər. Nəhayət, 6-cı qrupa illik dövriyyəsi 20 milyon qrivna və personalının sayı 50 nəfər olan hüquqi şəxslər daxildir. Onlar da həmçinin 7-10% dövriyyə vergisi ödəyirlər.

Qeyd edilməlidir ki, Ukraynada Vergi Məcəlləsinin qəbulu zamanı sadələşdirilmiş vergi sistemini ləğv etmək təşəbbüsü qaldırılmışdı. Lakin o zaman bu təşəbbüs sahibkarların çoxsaylı etirazlarına gətirib çıxardı.

Nəticədə sistem saxlanıldı, vergi ödəyiciləri dörd qrupa bölündü, ötən ilin ortalarında isə daha iki qrup əlavə edildi.

# Moldova xaricə istirahətə gedən turistlərə vergi tətbiq edəcək

*Moldovanın turizm üzrə Agentliyi xaricdə dincəlməyə gedən turistlər üçün vergi tətbiq etməyi təklif edib. Verginin məbləği 10-30 ley (80 sent - 2,4ABŞ dolları) təşkil etməlidir.*

Agentliyin başçısı Nikolay Platonun sözlərinə görə, qanunvericiliyə müvafiq dəyişikliklər 2014-cü ildən qüvvəyə minə bilər.

Agentliyin məlumatına görə, 2012-ci ildə Moldovaya 13 min turist gəlib, 147 min vətəndaş isə xaricə istirahətə gedib. N.Platonun fikrincə, «turizmi elə inkişaf etdirmək lazımdır ki, ölkəyə gələnlərin sayı gedənlərin sayından daha çox olsun».

# Latviya vergilərin azaldılmasına gələn il baxacaq

*İş qüvvəsinə vergilərin azaldılması ilə bağlı məsələyə növbəti ilin dövlət büdcəsinin müzakirəsi zamanı baxılacaq.*

Latviya hökumətinin başçısı qeyd edib ki, gəlir vergisinin dərəcəsinin nəzərdə tutulmuş ixtisarından imtina etməyə, əvəzində vergiyə cəlb edilməyən minimal gəlirlərin həddini və himayədə olan şəxslərə güzəştləri artırmağa çağıran ekspertlərin arqumentlərini dəyərləndirməyə ehtiyac var. O, vurğulayıb ki, büdcənin imkanları məhduddur, buna görə kompramis variantlar axtarmaq lazımdır.

Bundan əvvəl maliyyə naziri Andris Vilks də bildirib ki, gəlir vergisinin üç il ərzində 5% azaldılması çox tələsik addımdır. Bu qrafik «Gəlir vergisi haqqında» qanunun mətnində təsdiq edilsə də, maliyyə naziri belə azalmanın çox sürətli olduğunu bildirir.

# Rusiya iri biznesin vergiləri ilə bağlı dünya dövlətlərini vahid mövqeyə çağırır

*RF-nin Baş naziri Dmitri Medvedev bildirib ki, dünya dövlətləri böyük korporasiyaların vergitutma mexanizminə dair vahid mövqe hazırlamalıdırlar.*

«Nə qədər ki, dünyanın, ocümlədən ABŞ-ın böyük şirkətlərinə başqa yurisdiksiyalarda törəmə strukturlarını açmaq və vergiləri orada ödəmək sərfəli olacaq, o zamana qədər bu məsələ nizamlanmayacaq, dünya iqtisadiyyatında yeni problemlər, yeni Kiprlər meydana çıxacaq», - deyə D.Medvedev bildirib.

Baş nazirin sözlərinə görə, bu məsələni həll etmək asan deyil, çünki sahibkarlar onsuz da vergilərin optimallaşdırılması üçün həll imkanları axtaracaqlar. Lakin bır sıra məsələlər dövlətlərin vahid mövqeyindən asılı ola bilər.

«Gəlin dəqiqləşdirək, bizə nə lazımdır: şirkətlərimiz vergiləri öz ölkələrinin ərazilərində ödəsin, yoxsa biz başqa əlverişli vergi yurisdiksiyalarında törəmə strukturlar yaradaraq vergilərin əsas hissəsinin o ərazilərdə ödənilməsini tamamilə qanuni hesab edək? Bu, hazırda böyük iqtisadiyyatların qarşısında duran seçim məsələsidir», - deyə hökumət başçısı bildirib.



krossvord



**Yuxarıdan aşağı:**

1.Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda kənd; 2.Şirkətin məhsullarını topdansatış qiymətlərlə alan və pərakəndə satış qiymətlərinə satan fiziki və ya hüquqi şəxs; 3.Məşhur xanəndənin adı (1883-1962); 4.Sovet avtobus markası; 5.Qərbi Azərbaycanın Zəngəzur mahalı ərazisində rayon; 6.Gözlənilməz hədiyyə; 7.Metal. D.İ.Mendeleyevin elementlərin dövri sistemində 75-ci element; 11.Fotoaparat markası; 13.Üzvi birləşmə olub, insan və heyvanların qidasının zəruri hissəsini təşkil edir; 15.«Baharın on yeddi anı» filmində Otto fon-Ştirlis obrazını canlandıran sovet kinoaktyorunun (1928-2009) soyadı; 16.1799-cu ildə Napoleon Bonapartın başçılıq etdiyi Fransa qoşunu ilə Osmanlı qoşunu arasında dəniz döyüşü; 7.Qitələrdən biri. Adı sami dilindən tərcümədə «günəşin batdığı tərəf» mənasını verir; 18.Kimsəsizlərin keşiyində duran «maskalı qəhrəman»; 20.Daha çox fəlsəfə, riyaziyyat və fizika kimi elmlərdə istifadə olunan termin - yer, fəza; 22.Afrika qitəsində çay. Dünyanın ikinci uzun çayıdır.

**Soldan sağa:**

1. Cənubi Azərbaycanın əyalətlərindən biri, «Ləçəktürünc» kompozisiyalı xalısı ilə məşhurdur; 5.Respublikamızda rayon; 8.Yaxşı vəziyyətə gətirmək, nöqsan və qüsurları düzəltmək; 9.Ədviyyat; 10.Azərbaycanda nağıl personajı; 12.Fransada şəhər; 14.Reaktiv qüvvə ilə işləyən uçan aparat. Ətraf mühitdən asılı olmayaraq və hətta havasız şəraitdə işləyir; 16.Qusar rayonunda kənd; 19.Tanınmış rus admiralı (1802-1855); 21.Kinematoqrafiya tarixində ən gəlirli «Titanik» və «Avatar» filmlərinin rejissorunun soyadı; 23.Yaponiyanın Hönsü adasında şəhər; 24.Latın Amerikasında torpaq mülkiyyəti; 25.Dalamazkimilər fəsiləsinə aid bitki cinsi.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**

1.Bişkek; 2.Trend; 3.Bankrot; 4.Tun; 5.Zivel; 6.Qutalin; 7.Nürgüt; 13.Aqronom; 15.Qotland; 16.Yurski *(Sergey)*; 17.Ştanqa; 18.Qrant; 20.Dalan; 22.İBM.

**Soldan sağa:**

1.Batabat; 5.Ziqan; 8.Şteyn; 9.Novator; 10.Eldarov *(Ömər)*; 12.Fiat; 14.Talaq; 16.Yoqa; 19.Antidot; 21.Sunqari; 23.Aslan *(Qəhrəmanlı)*; 24.İsmət *(Qayıbov)*; 25.Madonna.

**Tərtib etdi: Rafael**

## idman

# Velosipedçimiz beynəlxalq turnirdə ikinci yeri tutub

*Azərbaycan velosipedçisi Aqşin Bağırlı ilk dəfə Gürcüstanda, Qafqaz sıra dağlarının cənubunda yerləşən Stepantsminda rayonunda keçirilən nüfuzlu «RedBull GerGetlt» beynəlxalq turnirində ikinci yeri tutmuşdur.*

Azərbaycan komandası bu turnirdə müxtəlif ölkələrdən 20 komandanın qatıldığı mauntinbayk yarışlarında (dağ velosipedçisi) iştirak etmişdir.




Sevindirici haldır ki, Azərbaycan velosipedçiləri komanda birinciliyində üçüncü yerə layiq görülmüşlər. Aqşin Bağırlı şəxsi birincilikdə əvvəlcə irəlidə olsa da, məsafənin sonunda döngəni dolaşıq saldığına görə finişə ikinci çatmışdır.

Qeyd edək ki, idmançılarımızın bu mötəbər turnirdə iştirakı Azərbaycan Velosiped İdmanı Federasiyasının və «Red-Bull» şirkətinin dəstəyi sayəsində mümkün olmuşdur. Xatırladaq ki, yarışın təşəbbüskarı «Red Bull Dolomitenmann» turniridir. Qərbi Avropada komandalar arasında ən maraqlı yarış sayılan «Red Bull Dolomitenmann» hər il Avstriyada Dolomit dağında keçirilir. Gürcüstan turnirinin təşkilatçıları ümid edirlər ki, «Red Bull GerGetlt» də Şərqi Avropada ən nüfuzlu komanda yarışı olacaqdır.

«Red Bull GerGetlt» 4 ekstremal idman növünün nadir kombinasiyasından ibarət turnirdir. Yarışa qatılan hər komandada dörd atlet - kayakinq üzrə idmançı, qayaya dırmanan, dağ velosipedçisi və dağ qaçışçısı təmsil olunur.

# Dünya çempionatında ilk medal

*Macarıstanın paytaxtı Budapeştdə sərbəst, yunan-Roma və qadın güləşi üzrə dünya çempionatı davam edir. Yarışın ilk günündə Azərbaycan milli komandası medal hesabını açıb.*



96 kq çəki dərəcəsində yer alan sərbəst güləşçimiz Xetaq Qazyumov çempionatın gümüş medalına sahib olub. İdmançımız ardıcıl olaraq Argentina, Polşa, Qırğızıstan və Rusiya güləşçilərini mübarizədən kənarlaşdıraraq finala çıxıb. Lakin o, həlledici görüşdə iranlı Reza Yezdaniyə kiçik hesabla uduzaraq, dünya çempionatını ikinci yerdə başa vurub.

# FİLA-nın növbəti toplantısı keçirilib

*Sentyabrın 16-da Budapeştdə Beynəlxalq Güləş Federasiyasının (FİLA) İcraiyyə Komitəsinin növbəti toplantısı keçirilmişdir.*

Toplantıda Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, FİLA-nın İcraiyyə Komitəsinin üzvü Namiq Əliyev də iştirak etmişdir. Bu, güləşin 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarının proqramında saxlanılması barədə Beynəlxalq Olimpiya Komitəsinin məlum qərarından sonra FİLA İcraiyyə Komitəsinin ilk toplantısıdır.

Tədbirdə güləş qaydalarında edilən son dəyişikliklər, Olimpiya Oyunlarında güləş növləri üzrə çəki dərəcələrində gözlənilən mümkün dəyişikliklər müzakirə edilmişdir.

# «Baku Open -2013»ün «C» turniri başa çatıb

*«Baku Open-2013» Beynəlxalq şahmat festivalının 12 yaşadək uşaqlar arasında («C») turniri başa çatmışdır.*

Azərbaycan Şahmat Federasiyasından bildirmişlər ki, turnirdə ölkəmizin müxtəlif bölgələrindən 120 zəka sahibi qələbə uğrunda mübarizə aparmışdır.

On iki yaşadək oğlanlar arasında ən yaxşı nəticəni Bakı şəhərinin şahmatçıları Qurban Bayramov və Rüfət Nəsibov göstərmişlər. Eyni yaşlı qızlar arasında Leyla İbrahimli birinci, Aysu İsmayılova isə ikinci olmuşdur. On yaşadək oğlanlar arasında Məhəmməd Muradlı birinci, Vüqar Manafov və Zaur Balayev isə ikinci-üçüncü yerləri bölüşdürmüşlər. Sədaqət Abbasova 10 yaşlı qızlar arasında birinci, Gövhər Beydullayeva isə ikinci yeri tutmuşdur.

Səkkiz yaşadək oğlanlar arasında Mətin Salamov və Sənan Əliyev birinci və ikinci yerləri bölüşdürmüşlər. Eyni yaşlı qızlar arasında Ayan Allahverdiyeva qrupun vahid lideri adını qazanmış, Mehin Taba-Tabai isə ikinci yerdə qərarlaşmışdır.

# Açıq Rusiya çempionatında üç medal

*Çelyabinskdə taekvondo üzrə açıq Rusiya çempionatına yekun vurulmuşdur.*

Dünya Taekvondo Federasiyasının (DTF) G-1 kateqoriyalı üçüncü beynəlxalq turnirində millimiz 2 gümüş və 1 bürünc medal qazanmışdır.

Komandamızın üzvü Samir Cavadlı (58 kq) bütün rəqiblərinə qalib gələrək finala yüksəlmişdir. Həlledici görüşdə Zanat İskakova (Rusiya) məğlub olan idmançımız yarışı gümüş medalla başa vurmuşdur. Finala vəsiqə qazanmış Ceyhun Həsənli (87 kq) isə həlledici görüşdə Özbəkistan təmsilçisi Jasur Baykuziyevlə qarşılaşmışdır. Rəqibinə məğlub olan idmançımız çempionatın gümüş medalı ilə kifayətlənmişdir. Turnirdə 54 kq çəki dərəcəsində çıxış edən həmyerlimiz Samir Aydınov isə bürünc medala sahib olmuşdur.

## mozaika

# Havadan bol su əldə etmək üsulu tapılmışdır

elm

*Massaçusets Texnologiya Universitetinin alimləri Çilidən olan həmkarları ilə birlikdə havadan içməli su yığan qurğu işləyib hazırlamışlar.*

Bu, insanın nadir tapıntısı deyildir: planetin bəzi ən quraqlıq regionlarında bitkilər və heyvanlar su qıtlığına unikal şəkildə uyğunlaşmışdır. Yağıntının son dərəcə az olduğu və ya hətta heç olmadığı yerlərdə heyvanlar və bitkilər suyu birbaşa havadan, daha konkret desək, okeanlardan gələn dumandan alır.

Alimlər bu prosesi daha geniş miqyasda təkrarlayaraq dumandan 10 faizədək rütubət ala bilən qurğu yaratmışlar. Dünyanın 17 ölkəsində artıq buna bənzər qurğular işləyir, lakin onların səmərəliliyi nadir hallarda cəmi 2 faizə çata bilir.

Havadan su toplayan adi sistemlər poliolefin liflərdən hazırlanmış şaquli şəbəkədən ibarətdir. Bu şəbəkələr ucuz başa gəlir, amma az səmərəlidir, çünki hətta optimal şəraitdə dumandan yalnız 2 faiz rütubət almağa imkan verir.



Massaçusets universitetinin mütəxəssisləri şəbəkənin ideal parametrlərini müəyyənləşdirərək onun səmərəliliyini xeyli artırmışlar. Hər şeydən əvvəl, sintetik lifləri insan tükündən 2-3 dəfə qalın saplardan ibarət paslanmayan poladla əvəz etmək lazımdır. Bundan başqa, şəbəkəyə xüsusi örtük çəkilməlidir ki, damcılar asanlıqla şəbəkə ilə sürüşüb nova düşsün, külək onları qalan dumanla birlikdə götürüb aparmasın. Odur ki, şəbəkə dəliyinin ölçüsü onun hazırlandığı liflərin diametrindən 2 dəfə böyük olmalıdır.

Yeni qurğunun prototipi Atakama səhrasının sahilboyu dağlıq ərazisində sınaqdan çıxarılmışdır. 1 kvadratmetrlik şəbəkə vasitəsilə gündə bir neçə litr su əldə etmək mümkün olmuşdur. Hesablamalar göstərmişdir ki, ilin müəyyən vaxtında qurğu gündə 12 litrədək içməli su yığa bilər. Bir-birinin ardınca bir neçə cərgə belə şəbəkədən istifadə olunarsa, hesablanmış 10 faizdən xeyli çox su toplamaq olar.

Qurğunun müəllifləri təsdiq edirlər ki, paslanmayan poladdan hazırlanmış yüzlərlə kvadratmetrlik iri şəbəkələr çox baha olmayacaq, uzun müddət xidmət göstərəcək və elektrik enerjisi işlətmədən su istehsal edəcəkdir. Çili tədqiqatçılarının hesablamalarına görə, dumandan hətta cəmi 4 faiz su əldə etsələr belə, Çilinin 4 şimal regionuna bərabər bir ərazini ucuz içməli su ilə təmin etmək mümkün olacaqdır.

# Beyindən beyinə informasiya ötürülür

tədqiqat

Vaşinqton Universitetinin tədqiqatçıları internet bağlantısı vasitəsilə informasiyanın bir insan beynindən digər insan beyninə ötürülməsi üzrə interfeys yaradıblar. Universitetdə keçirilən sınaqlar zamanı tədqiqatçı Raceşu Rao təfəkkür gücü ilə sınağın ikinci iştirakçısı - həmin anda xəttin digər sonunda olan Andrea Stokkun barmağını klaviatura üzərində hərəkətə gətirməyə nail olub. Siqnalın beyindən beyinə ötürülməsi üçün adi internet bağlantısından istifadə olunub. Əvvəllər laboratoriya siçovullarının iştirakı ilə belə sınaq Dyuk Universitetində keçirilib, habelə Harvard Universitetinin tədqiqatçıları tərəfindən insan beyninin idarə olunan siqnallarının siçovula ötürülməsi göstərilib. Vaşinqton Universitetində baş tutan sınaq insanlar arasında bilavasitə informasiya mübadiləsinin ilk nümayişi olub.



# NASA yeni robot hazırlayır

kainat

*Venera Günəş sisteminin ən sərt yerlərindən biridir. Buna görə də o, tədqiqat üçün ideal obyektdir. Şübhəsiz ki, Marsa Rover deyilən robot göndərib onun səthi barədə məlumat əldə etmək əla ideya olsa da, weblaboratory.org. saytının verdiyi xəbərə görə, NASA yeni üfüqlər açmaq istəyir.*

Venerada inanılmaz istidir, orada atmosfer təzyiqi yüksəkdir, çox böyük tünd rəngli sulfat turşusu buludları vardır, daha doğrusu, onu «cəhənnəm» adlandırmağa əsas verəcək hər şey mövcuddur.

Bu şəraitdə salamat qalmaq üçün robot möhkəm və ağıllı, həm də əla vindserfer olmalıdır.

Ən maraqlısı odur ki, bu «tədqiqatçı» külək yelkəni ilə təchiz edilmiş Zefirin eyni olacaqdır. Çox yüksək temperatura davam gətirə biləcək Roverin quraşdırılması nəzəri cəhətdən mümkündür. Selsi cədvəli üzrə 450 dərəcə çox yüksək temperaturdur, amma o dərəcədə yox ki, Yerin bütün metalları ondan qorxsun.

Deməli, Rover çox ağır olacaq və çətinliklə hərəkət edəcəkdir. Bununla yanaşı, NASA komandası küləkdən istifadə ideyasını araşdırır. Orada hava nisbətən sakit olsa da və gücü külək əsməsə də, çox böyük təzyiq o deməkdir ki, ən xəfif yel belə, xeyli enerji verə bilər.

Klivlenddə NASA-nın Qlenn adına elmi-tədqiqat mərkəzində layihənin başçısı Ceffri Lendis izahat verərək demişdir: «Roverin yelkəni bir qədər qeyri-adi olacaqdır. Daha az enerji sərf etməsi üçün onun yalnız iki səyyar hissəsi olacaqdır. Əslində, onun idarə olunması üçün heç bir təchizat lazım gəlməyəcəkdir».

Rover çox hərəkət etməli olmayacaqdır, o, sadəcə yerini dəyişərək tədqiqatlar aparacaqdır. Veneranın səthinin kifayət qədər yastı olduğu nəzərə alınarsa, Roverin külək enerjisi vasitəsilə irəli-geri hərəkət edə bilməsi ideyası çox maraqlıdır.

# Ədviyyatın tarixi

maraqlı

*Beynəlxalq arxeoloqlar qrupu belə qənaətə gəlmişdir ki, avropalılar müxtəlif növ ədviyyatdan hələ 7 min il bundan əvvəl istifadə etmişlər*

Avropalı alimlər Amerika, Afrika və Asiyada tədqiqatlar aparmışlar. İlk yazılı mənbələrdə İsa peyğəmbərin doğum tarixindən 3 min əvvəl avropalıların xörək hazırlayarkən ədviyyatlardan istifadə edildiyi barədə məlumat verilir.



Əldə olunan dəlillər ədviyyatlardan istifadənin daha qədim dövrlərə məxsus olduğunu sübut etmişdir. Qazıntılar zamanı alimlər eramızdan 5 min il əvvəl mətbəxlərdə ədviyyatların işlədilməsinə dair yeni faktları üzə çıxarmışlar.

Danimarka və Almaniya ərazilərində arxeoloji qazıntılar zamanı tapılan bankalarda sarımsaq, xardal və digər ədviyyatlar alimlərin 7 min il bundan əvvəl avropalıların ədviyyatlardan istifadə etmələrinə dair söylədikləri fikirləri təsdiq etmişdir.

**Müdriklər deyib ki...**



***«İki şey sonsuzdur: insanın axmaqlığı və təbiət. Hərçənd ki, ikincidən o qədər də əmin deyiləm»***

***A. Eynşteyn***